# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 08 (3332) Çərşənbə axşamı / 26-27 yanvar 2021-ci il Qiyməti 40 qəpik


# Vətən Müharibəsi Memorial Kompleksi

Ötən günlərdə Türkiyə və Azərbaycan qardaşlığının rəmzinə çevrilən Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi konsepsiya layihəsinin təqdimatı keçirildi. Memar Muxtar Ərturanın müəllifi olduğu layihə dövlət başçımızın 3 dekabr tarixli sərəncamına əsasən hazırlanıb. Konsepsiya azərbaycanlı və türkiyəli memar, mühəndis və dizaynerlər tərəfindən qarşılıqlı dostluğun rəmzi olaraq işlənib. Hafta.az layihənin rəhbəri memar Muxtar Ərturan ilə həmsöhbət oldu. Layihənin özəlliyi, konsepsiya ilə bağlı suallarımızı cavablandırdı:

- "Zəfər Muzeyi", "İstiqlal zirvəsi" layihələri özündə son texnologiyaları tərənnüm edir. Yəni o, bugünkü muzey konsepsiyasının smart versiyasıdır. Söhbət gözlərimizin öyrəşdiyi muzey və eksponatlardan getmir. Gələcək nəsillərə daha dolğun məlumat ötürmək və zamanın nəbzini tutmaq üçün hazırlanmış "ağıllı muzey" layihəsidir. Layihənin smart olmasının özəlliklərindən biri də budur ki, bütün binada heç bir bələdçiyə ehtiyac olmayacaq. Bina bir növ süni intellektdir. Muzey özü qonaqları qarşılayır, hər bir eksponat özü haqqında məlumat verir. Bundan başqa, eksponatlar "3D" formatında, holoqram şəklində hazırlanır.



## Türkiyə və Azərbaycan qardaşlığının rəmzinə çevrilən layihə




Təqdim etdiyimiz İstiqlal Zirvəsi layihəsi Azərbaycan Bayrağının simvollarını üzərində daşıyır. O, milli atributlarımızdan olan və Türk dünyasının simvollarını əks etdirən aypara və səkkizgüşəli ulduz şəklində, ultramüasir, çoxmərtəbəli bina olmaqla layihələndirilmişdir.

Binanın paytaxtın ən yüksək nöqtəsində tikilməsi nəzərdə tutulub. Şəhidlər Xiyabanı, Əbədi məşəl və prospektlərdən buraya panorama görüntüsü açılır. Layihə ilk Müstəqillik Bəyannaməsi elan edilən tarixdən bu günə kimi baş vermiş bütün tarixi hadisələri özündə canlı olaraq əks etdirir. Memorial kompleks ətrafında landşaft dairəvi formadadır. Buna səbəb isə 8 Noyabr zəfər marşı üçün hərbi zirehli texnikaların və insan kütləsinin rahat hərəkətidir.

Hər bir layihənin öz ilham mənbəyi olur. Biz də sözügedən layihəni şəhidlərimizin əziz xatirəsinə ithaf etmişik. Şəhidlərimizi unutmamalı, onları hər daim yad etməliyik. Onlar öz ömürlərindən biz rifah yaşayaq deyə keçdilər. Bunun üçün də layihəni reallaşdırmaq üçün sırf həmin ərazini seçdik. Biz müstəqil ekspertlərlə birgə, həmin o yerin topoqrafiyasını və geologiyasını çıxardıq ki, bina seysmik zonanın üzərində olmasın. Ərazi binanın konstruktiv çəkisinə cavab verə bilsin.

Binanın birinci mərtəbəsində, döşəmədən nisbətən hündür, dairəvi formada "Turan Birliyini" əks etdirən gerb vardır. Bu gerb Türk dünyasının simvolikasıdır. Onu üçrəngli bayrağımız əhatə edəcək. Bayrağın üzərində isə Birinci və İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarımızın adları xüsusi neon, fosforlu boyalarla yazılacaq. Simvolik gerbin üzərində hündürlüyü 30 metr olan, speys holoqram nəzərdə tutulmuşdur. Burada silindr daxilində ulu öndər Heydər Əliyevin, Ali Baş Komandan İlham Əliyevin "7D" formatlı holoqrafik təsvirləri ilə, 30 metr hündürlükdən seçilmiş nitqləri səsləndiriləcək. Adi vaxtlarda burada dünyanın ən böyük (hündürlüyü 30 m) holoqram məşəli yanacaqdır. Əminliklə deyə bilərəm ki, layihədən dünyanın heç bir yerində yoxdur.

Layihənin başqa bir üstün cəhəti isə ulu öndər Heydər Əliyev irsinin araşdırılması muzeyinin orada olmasıdır. Bundan başqa, binanın daxilində 2 böyük zal nəzərdə tutulub. Burada 20 Yanvar qətliamı və Xocalı soyqrımı hadisələri öz əksini tapır. 15-16 metr uzunluqda bir zaldır, onun içərisinə ziyarətçilər maili eskolatorlar vasitəsilə daxil olacaqlar. Burada ziyarətçilər xüsusi texnologiya vasitəsilə 99% canlı görüntülərlə üzləşəcəklər. Misal olaraq deyim ki, Xocalı zalına daxil olan insan 1 dəqiqə ərzində həmin gün baş vermiş bütün dəhşətləri görmüş olacaq. Bu, vizual qrafika deyil, canlı, 3D holoqramdır. Hansı ki, dünyanın ən inkişaf etmiş ölkələrində təzə istifadə edilməyə başlayır. Muzey konsepsiyası isə dünyada bir ilkdir. Burada ayrıca "Hərbi Sənayesi Muzeyi" fəaliyyət göstərəcək. Muzeyin daxilində müharibədə istifadə olunan silahlar və texnikalar nümayiş olunacaq. Bundan əlavə, kompleksdə "smart rəsm qalereyası", "smart kitabxanalar" yaradılacaq. Ziyarətçi "smart voice" texnologiyası vasitəsilə, konkret eksponat barədə sərbəst məlumat ala biləcək. Binanın daxilində "7D" sinema zalları mövcud olacaq.



*Layihənin konsepsiyadan çıxıb layihə formasına düşməsi üçün bütün komandamız hazırdır və əmr gözləyirik*

Səh. 3

---

MÜSAHİB

## "Yenə də "Topxana meşəsi"ndən danışacağıqsa..."



**Fazil Mustafa,**
Milli Məclisin deputatı

***Ölkənin ictima-siyasi durumunun Vətən Müharibəsi dövründən də gərgin olduğunu ifadə edən ekspertlər, mövcud vəziyyətlə bağlı müxtəlif versiyalarla çıxış edirlər. Proseslər təbii olaraq birmənalı qarşılanmır. Siyasilər cəmiyyətin diqqətinin yayınmaması üçün həmrəylik və birliyin qorunmasını tələb edirlər. Bu və ya digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən millət vəkili Fazil Mustafa maraqlı nüanslara diqqət çəkib.***

*Rusiya sülhməramlılarının birmənalı şəkildə bizim arzuladığımız mövqedən davranmayacağını əvvəlcədən proqnozlaşdırmışdıq.*

Səh. 3

---

MÜSAHİB



**Sülhəddin Əkbər,**
Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının prezidenti, politoloq

- Bayden dövrü Rusiya üçün yeni sınaq zamanıdır.
- Rusiyada gedən proseslər ilk növbədə bütün postsovet məkanına, o cümlədən Azərbaycana təsirsiz ötüşmür.
- İndi Moskvada hakimiyyətdə mərkəzi komitənin 1-ci katibi, islahatçı Qorbaçov deyil, keçmiş "KQB" zabiti Putindir.

Səh. 6

---

GÜNÜN FOTOSU...



**Rusiyada etiraz aksiyaları...**

---

GÜNÜN SİTATI

*Biz o insanları ailə və soydaş hesab edirik. Arazın hər iki sahili boyu hər zaman soydaşlıq və dostluq münasibətləri mövcud olub*



**Məhəmməd Cavad Zərif,**
İranın xarici işlər naziri

---

KARİKATURA




**Dünyada koronavirusla mübarizənin mövcud mənzərəsi...**

---

## "Qapanlı bombalanandan sonra müharibənin dəhşətini gördük"

**Araz Xan,**
İTV-nin xüsusi müxbiri

Bəli, bizim bu gün o kadrlarımız var, amma efirə getməyiblər.

Səh. 6

---

STATİSTİKA



**2020-ci il ərzində bələdiyyələrin fəaliyyəti ilə bağlı 3503 müraciətə baxılıb. Müraciətlərin sayı əvvəlki illə müqayisədə 6% çox olub.** Təmin edilmiş müraciətlərin sayı 17% artıb. Müraciətlərə baxılması nəticəsində qanunvericiliyin tələblərinə zidd olan 328, ötən ildən 45% çox bələdiyyə aktının dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı aidiyyəti bələdiyyələrə təkliflər verilib. Ümumilikdə 3267 təklifdən 15-i ilə bağlı məhkəmələrdə 15 iddia qaldırılıb, onlardan 2-si məhkəmə tərəfindən təmin edilib, 13-ü isə məhkəmələrin icraatındadır.

---



Səh. 4

# Ailə dəyərləri

## PREZİDENTİN İŞ GÜNÜ



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib. Görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib:**

- Biz ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Bildiyiniz kimi, biz çoxsaylı - prezidentlər səviyyəsində 10-dan çox, eləcə də digər yüksəkrütbəli rəsmilər səviyyəsində görüşlər keçirmişik. Bu görüşlərin hamısı çox səmərəli olub. Bu yaxınlarda ölkənizdə səfərdə olan Baş nazirin müavini Şahin Mustafayev mənə aparılan müzakirələr və razılaşmalar barədə hesabat verdi. Biz planlaşdırdığımız bütün işləri həyata keçirmişik. Biz son bir neçə ildə iki qardaş ölkənin çox yaxın olduğu siyasi sahədə, iqtisadi sahədə, nəqliyyat, enerji sahələrində çox yaxşı nəticələr görürük.

Bizim bu gün diqqətimizdə olan Şimal-Cənub nəqliyyat dəhlizi kimi bütün layihələr, enerji infrastrukturu ilə bağlı layihələr uğurla inkişaf edir. Şimal-Cənub nəqliyyat dəhlizi işləyir. Mənə indicə məlumat verilib ki, ötən il yükdaşımaların həcmi demək olar ki, 20 faiz artıb. Bu, çox müsbət nailiyyətdir. Baxmayaraq ki, onu tam şəkildə başa çatdırmamışıq, biz bu istiqamətdə hərəkət edirik.

Regionda yeni vəziyyətlə əlaqədar yeni imkanlar, sözsüz ki, özəl investorlar, həmçinin dövlət qurumları üçün əməkdaşlığa geniş qapılar açır. Hazırda yeni nəqliyyat əlaqələri müzakirə mərhələsindədir və sözsüz ki, bizim Xudafərin su anbarı ilə bağlı əməkdaşlığımız və elektrik stansiyasının tikintisi ilə əlaqədar gələcək planlar artıq çox aktiv fazadadır. Ümidvaram ki, qarşıdakı bir neçə ildə bu layihəni tamamlaya və hər iki tərəfi yeni elektrik enerjisi istehsalı ilə təmin edə biləcəyik. Həmçinin bizim bir neçə il əvvəl yüksək səviyyədə razılaşdırdığımız layihə - Ordubad və Marazad elektrik stansiyaları ilə bağlı işlər uğurla gedir. Beləliklə, bizim geniş gündəliyimiz var. Bundan əlavə, ümidvaram ki, tezliklə çay üzərindən yeni körpünün təməlqoyma mərasimi keçiriləcək və bir çox digər məsələlər.

Bizim müzakirə edəcəyimiz çox məsələlər var. Mən, ilk növbədə, ikitərəfli əlaqələrimizi, onların səviyyəsini, inkişaf tempini, nailiyyətləri və yeni planları yüksək qiymətləndirdiyimi bildirmək istərdim. Əlbəttə ki, biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq. Bu, təbiidir, çünki dediyim kimi, yalnız dost ölkələr bizim tərəfdaşımız olacaq. Sözsüz ki, İran şirkətlərinin bizə yaxın yerləşməsi, logistika və böyük təcrübə kimi üstünlükləri var.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

***

**Prezident İlham Əliyev görkəmli elm xadimi Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə görkəmli elm xadimi Lütfi Zadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirməlidir.

Qeyd edək ki, bu ilin fevral ayında Lütfü Zadənin (Lütfəli Rəhim oğlu Ələsgərzadənin) anadan olmasının 100 ili tamam olur.

# Ədliyyə orqanlarının birillik fəaliyyəti

## Hesabat

**Ədliyyə Nazirliyində 2020-ci ilin yekunlarına dair mətbuat konfransı keçirilib. Hafta.az ədliyyə strukturlarının fəaliyyəti ilə bağlı mətbuat konfransında səsləndirilən bezi maraqlı məqamları sizlərin də diqqətinə çatdırır.**



### Azərbaycana 7 nəfər ekstradisiya olunub

**Ötən il 5 məhkum Azərbaycana gətirilib, 25 xarici məhkum isə öz ölkələrinə təhvil verilib. Bunu Ədliyyə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Adil Əbilov bildirib.**

Onun sözlərinə görə, keçən il 7 nəfər xarici ölkələrdən Azərbaycana ekstradisiya olunub: "Bu günə qədər sərhədlər bağlı idi, ekstradisiyaya görə problemlər yaranmışdı, çünki orijinal məhkəmə sənədləri daxil olmalı idi. Buna görə bir sıra tərəfdaşlarla məsləhətləşmələr aparılıb, elektron sənədləri icraya götürməyi xahiş etmişik. Bunun nəticəsində xarici ölkələrdən Azərbaycana 7 nəfər ekstradisiya olunub, Azərbaycanda olan 6 xarici vətəndaş da digər ölkələrə ekstradisiya edilib".

### 70-ə yaxın dövlətin ədliyyə orqanlarına müraciət göndərilib

**Sentyabrın 27-də həyata keçirilən əks hücum ilə başlayan və 10 noyabrda düşmənin təslim olması ilə nəticələnən Vətən Müharibəsində ermənilər ağır məğlubiyyətə məruz qaldılar. İnsanlıq əleyhinə əməllər törədənlərin cəzalandırılması çox vacibdir.**

Bunu isə Nazirliyin Təşkilat-nəzarət baş idarəsinin rəis müavini, Qarabağ regional ədliyyə idarəsinin rəisi vəzifəsini icra edən Sübhi Kazımov səsləndirib. Onun sözlərinə görə, bu səbəbdən ermənilərin insanlıq əleyhinə törətdiyi əməllər barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün 70-ə yaxın dövlətin ədliyyə orqanlarına, nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ünvanlanıb. Ölkəmizin 20%-nin işğala məruz qalaraq 1 milyona yaxın insanın dədə-baba yurdundan didərgin salınması qeyd edilib. Ədliyyə naziri Fikrət Məmmədovun səsləndiridiyi fikirlərindən 9-cu Cenevrə Konvensiyasının, ermənilər tərəfinbdən kobud pozulması, dünya dövlətləri, beynəlxalq təşkilatların ədalət naminə səslərini ucaltmaları qeyd edilib. Azərbaycan həqiqətlərinin təbliği üçün Ədliyyə Nazirliyinin saytında 3 dildə fəaliyyət göstərən "Qarabağ Azərbaycan" elektron platforması yaradılıb.

İşğaldan azad olunmuş ərazilərdə xüsusi idarəetmə ilə bağlı dövlət başçısının tapşırığına əsasən Ədliyyə nazirliyi tərəfindən aidiyyəti məsul şəxslər tərəfindən qərargah yaradılıb. Ermənilərin insanlıq əleyhinə cinayətləri, xüsusilə iqtisadi və qeyri-qanuni fəaliyyətləri, ədliyyə və məhkəmə infrastrukturuna dəyən ziyanın hesablanması tapşırılıb. 12 noyabrda Qarabağ regional ədliyyə idarəsi təsis olunub. Vətəndaşların ədliyyə institutlarına əlçatanlaığı üçün yaradılan idarə artıq fəaliyyətə başlayıb.

### 65 yaşdan yuxarı 176 məhkum azad olunub

**Cəzaların icrası sahəsində mühüm tədbirlər həyata keçirilib. Ədliyyə Nazirliyinin Cəzaların icrasına nəzarət üzrə müfəttişliyinin rəisi Malik Ələkbərovun sözlərinə görə, məhkumların hüquqlarının müdafiəsi, ərzaq və tibbi təyinatı, onların müalicəsi ilə bağlı məsələlər diqqətdə saxlanılıb:** "COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq üçün yaradılan monitorinq qrupu müəssisələrdə vəziyyəti araşdırıb, məhkumların sağlamlığı ilə bağlı tədbirlər görülüb. Cəzaların humanistləşdirilməsi ilə bağlı ötən il də lazımi tədbirlər görülüb. İndiyə qədər amnistiya ilə 8149 nəfər azadlığa buraxılıb. Pandemiya dövründə cəzaçəkmə müəssisələrində yaşı 65-dən yuxarı olan məhkumların cəzadan azad olunması ilə bağlı 176 nəfər əfv edilib. Əfv olunanlardan iki nəfər ömürlük məhbus olub. Onların hər biri test nümunələrindən keçirilib və evlərinə göndərilməsi təmin olunub".

### Cəza çəkməkdən boyun qaçıran 245 məhkum tutulub

**Ötən il cəza çəkməkdən boyun qaçıran 245 məhkum tutularaq barələrində müvafiq tədbirlər görülüb.**

Nazirliyin Probasiya xidmətinin rəis müavini Musa Hümbətovun sözlərinə görə, ötən il ərzində cəzanın icrasından boyun qaçıran 1023 məhkumun cəzasının qanunvericiliyə uyğun olaraq daha ağır cəza növü ilə əvəz edilməsi ilə bağlı məhkəmələrə təqdimatlar verilib: "Onlardan 575-i təmin edilərək 78 halda islah işləri, 149 halda ictimai işlər, 218 halda azadlığın məhdudlaşdırılması və 309 halda isə azadlıqdan məhkum edilmə ilə əvəz olunub".

Ötən il 2603 məhkuma elektron qolbaq tətbiq olunub. Musa Hümbətov bildirib. Onun sözlərinə görə, bu da 2019-cu illə müqayisədə 7,3% çoxdur: "Elektron qolbaq tətbiq olunmuş şəxslərin 2561 nəfəri azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunub, 19-u cəzadan şərti olaraq vaxtından əvvəl azad olunub, 23 nəfəri isə şərti olaraq məhkum edilmiş şəxslər olub".

### Ötən il 35 576 nikah qeydə alınıb

**Ötən il Azərbaycanda 35 576 nikah qeydə alınıb. Bunu isə Nazirliyin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin rəisi Reyhanə Kərimova bildirib.** Onun sözlərinə görə, 2018-ci ildən faktiki nikah münasibətində olan şəxslər müəyyən edilir, onların tibbi müayinədən keçmələri köməklik göstərilməklə nikahları dövlət qeydiyyatına alınır. 2020-ci ildə ildə də maarifləndirmə işi ilə faktiki nikahda olan 1 420 cütlük müəyyən edilib, onlardan tibbi müayinədən köməklik göstərilməklə 981-nin nikahı dövlət qeydiyyatlına alınıb. Erkən nikahla bağlı maarifləndirmə ilə 2020-ci ildə Ədliyyə Nazirliyinin qeytiyyat şöbələri tərəfindən nikaha daxil olmaq üçün müraciət edən 61 erkən nikah yaşında olan şəxs erkən nikah və qohumlar arasında nikahın həyat və sağlamlığa mənfi-psixoloji təsiri barədə məlumatlandırılıb, 53 maarifləndirmə işi həyata keçirilib. R.Kərimovanın sözlərinə görə, ötən il qeydiyyat şöbələri tərəfindən nikahın pozulması haqqında 1 182 ərizə qəbul edilib. Onlardan 1 550-si psixoloqla söhbətə cəlb edilib: "Qeydiyyat şöbələrində söhbətə cəlb edilmiş şəxslərdən 576 nəfər (288 cütlük) nikahın pozulmasından imtina edib".

Ötən il körpələrə ən çox verilən adlar açıqlanıb. Reyhanə Kərimova bildirib ki, ötən il doğumu qeydə alınan kişi cinsindən olan körpələrə ən çox Yusif, Əli, Uğur, Hüseyn və Məhəmməd adı qoyulub. Ötən il körpələrə ən çox verilən qız adları isə Zəhra, Zeynəb, Məryəm, Aylin və Mələk olub.

### Bələdiyyələrin böyük qisminin xeyli borcu var

**"Əvvəlki illərdə icarəyə verilmiş bələdiyyə torpaqlarının icarə haqları ilə bağlı mövcud vəziyyətin müəyyənləşdirilməsi məqsədilə məlumatlar toplanılaraq təhlil edilib.**

Məlum olub ki,bir çox hallarda əvvəlki illərdə müəyyənləşdirilmiş icarə haqlarının mövcud bazar qiymətlərindən dəfələrlə aşağı olmasına baxmayaraq bələdiyyələr tərəfindən qiymətlərin uyğunlaşdırılması üçün qanunamüvafiq tədbirlər demək olar ki görülməyib". Bunu Nazirliyin Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədov bildirib. Onun sözlərinə görə, bu sahədə uyğunsuzluqların aradan qaldırılması və qanunamüvafiq tədbirlərin görülməsi üçün "İcarə haqlarının bazar qiymətlərinə uyğunlaşdırılması barədə" tövsiyə, məsələ ilə bağlı qəbul edilməli olan bələdiyyə qərarının, icarəçilərə göndərilməli təklifin, iddia ərizəsinin nümunəvi formaları hazırlanaraq bütün bələdiyyələrə göndərilib:

"Hazırda tövsiyədə göstərilən tədbirlərin icrası üçün bələdiyyələrlə davamlı iş aparılır. Hesab olunur ki, qeyd edilən məsələnin tənzimlənməsi bir çox bələdiyyələrin büdcə gəlirlərini əhəmiyyətli dərəcədə artıra bilər. Bələdiyyələrin debitor və kreditor borcları barədə sorğu əsasında toplanmış məlumatların təhlili göstərir ki, bələdiyyələrin böyük qisminin xeyli məbləğdə debitor və kreditor borcları (əsasən əmək haqqı, sosial sığorta ayırmaları üzrə) var. Bələdiyyələrin əksəriyyəti tərəfindən debitor borcların həlli istiqamətində ardıcıl təsirli tədbirlər görülmür, pul tələblərinə dair icrası məcburi aktların qəbul edilərək icraya yönəldilməsi səlahiyyətlərindən istifadə edilmir".

✍ *Azad Əliyev*

# Mehriban Əliyeva yenidən AGF-ının prezidenti seçilib



**Azərbaycanın birinci xanımı Mehriban Əliyeva yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib.**

Azərbaycan Gimnastika Federasiyasının yanvarın 25-də təşkil olunan hesabat-seçki xarakterli 11-ci ümumi yığıncağında keçirilən səsvermənin yekunlarına əsasən, Mehriban Əliyeva növbəti beş il müddətində federasiyaya rəhbərlik edəcək.

Səsvermə nəticəsində Altay Həsənov federasiyanın vitse-prezidenti seçilib. Həmçinin Milli Məclisin deputatı Rauf Əliyev, Heydər Əliyev adına İdman-Konsert Kompleksinin direktoru Rafiq Behbudov və bədii gimnastika üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Mariana Vasilyeva federasiyanın İcra Komitəsinin üzvü seçiliblər.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Səkkiz prokurorluq işçisi vəzifəsindən azad edilib

## Kollegiya

**Ötən il prokurorluq orqanlarına daxil olmuş müraciətlərin 9777-i tam təmin olunub. Bunu Baş Prokurorluqda Mərkəzi Aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə videokonfrans rejimində prokurorluq orqanları tərəfindən 2020-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclasında Baş prokuror Kamran Əliyev deyib.**

Kollegiya iclasında Prezident cənab İlham Əliyevin dövlət gənclər siyasəti çərçivəsində ölkəmizdə həyata keçirilən mütərəqqi tədbirləri qeyd edən Baş prokuror Kamran Əliyev 2002-ci ildən başlayaraq keçirilən 21 müsabiqə əsasında işə qəbul edilən hüquqşünasların hazırda prokurorluq işçilərinin 70 faizini təşkil etdiyini, həmin işçilərin bir çoxunun ötən il ərzində Baş Prokurorluğun idarə rəisi, rayon və şəhər, ərazi hərbi prokuroru vəzifələrinə təyin olunmalarını diqqətə çatdırıb. Kollegiya iclasında Baş Prokurorluqda yeni yaradılmış Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi tərəfindən hesabat dövründə müsbət iş göstəricilərinə nail olunduğu, bu sahədə prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun olaraq işlərin səmərəliliyinin artırılmasının vacibliyi qeyd edib.

*"Prokurorluq orqanlarına daxil olmuş müraciətlərin 9777-nin tam, 708-nin isə qismən təmin olunması vətəndaş məmnunluğunun təmin olunması üzrə həyata keçirilən tədbirlərin nəticəsi kimi qiymətləndirilməlidir.*

Bildirilib ki, dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında koronavirus pandemiyası ilə əlaqədar məhdudiyyətlərə baxmayaraq, 2020-ci ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılmış, müraciətlərin obyektiv araşdırılmaqla şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun, ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir. Prokurorluq orqanlarına daxil olmuş müraciətlərin 9777-nin tam, 708-nin isə qismən təmin olunması vətəndaş məmnunluğunun təmin olunması üzrə həyata keçirilən tədbirlərin nəticəsi kimi qiymətləndirilməlidir. Kollegiya iclasında qeyd edilib ki, hesabat dövründə öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilməyən, prokurorluq işçisinə yaraşmayan hərəkətlərə, xidməti intizamın kobud pozuntusuna yol verən və vəzifələrini layiqincə yerinə yetirə bilməyən 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 2-si prokurorluq orqanlarından xaric edilmiş, 8 nəfər vəzifədən azad edilmiş, 15 nəfərə töhmət və ya şiddətli töhmət, 5 nəfərə isə digər intizam tənbehi tədbirləri tətbiq edilmişdir. Ötən müddət ərzində Baş Prokurorluğun fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması və maarifləndirmə məsələlərinin xüsusi əhəmiyyəti nəzərə alınmaqla Mətbuat xidmətinin işi daha da təkmilləşdirilmiş, verilən informasiyanın daha çox oxucu kütləsinə çatdırılmasının təmin edilməsi məqsədi ilə qurumun sosial şəbəkələrdə rəsmi səhifələri açılmış, həmçinin Baş Prokurorluğun yeni veb-saytı ictimaiyyətin istifadəsinə verilmişdir.



**Kamran Əliyev,**
Baş prokuror

Kollegiya iclasında fəaliyyətin səmərəliliyinin artırılması, işğaldan azad edilmiş rayonların prokurorluqlarının peşəkar kadrlarla komplektləşdirilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş, itkin düşmüş və əlil olmuş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının hər bir müraciətinə xüsusi diqqət və həssaslıqla yanaşılması, artım tendensiyası müşahidə edilən cinayətlərin qarşısının alınması, bağlı qalan bütün cinayətlər üzrə təqsirli şəxslərin müəyyən edilməsi, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət və prosessual rəhbərliyin keyfiyyətinin artırılması və digər istiqamətlərdə konkret tapşırıqlar verilib.

Daha sonra Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, Baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Bakı şəhər prokuroru İlqar Abbasov, Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru Yaşar Həsənov, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Elşən Abbasov, Gəncə şəhər prokuroru Azad Qarayev, Füzuli rayon prokuroru Elnur Rüstəmov və Qazax rayon prokuroru Rauf Gözəlov hesabat dövündə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair mövzuda çıxışlar etmiş, müzakirələrlə bağlı fikir mübadiləsi aparılıb.

Kollegiya iclasına yekun vuran Baş prokuror prokurorluq orqanlarının kollektivi adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin edib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

## Müsahib

***Ölkənin ictima-siyasi durumunun Vətən Müharibəsi dövründən də gərgin olduğunu ifadə edən ekspertlər, mövcud vəziyyətlə bağlı müxtəlif versiyalarla çıxış edirlər. Proseslər təbii olaraq birmənalı qarşılanmır. Siyasilər cəmiyyətin diqqətinin yayınmaması üçün həmrəylik və birliyin qorunmasını tələb edirlər. Bu və ya digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən millət vəkili Fazil Mustafa maraqlı nüanslara diqqət çəkib.***

# "Yenə də "Topxana meşəsi"ndən danışacağıqsa..."



**Fazil Mustafa,**
Milli Məclisin deputatı

*"Rusiya sülhməramlılarının birmənalı şəkildə bizim arzuladığımız mövqedən davranmayacağını əvvəlcədən proqnozlaşdırmışdıq.*

*"Biz bu müharibədə gördük ki, doğru balans quranda uğur qazanmaq olur.*

***- Fazil bəy, 44 günlük Vətən Müharibəsindən sonrakı vəziyyət bizdən hansı yanaşmaları tələb edir?***

- Əslində, mövcud vəziyyət bizdən səbirli olmağı və müəyyən dərəcədə prosesləri addım-addım yönətməyi tələb edən bir durumdur. Ermənilərə hələ indi çatır ki, Kəlbəcərdə yolu bağlamaq onların özləri üçün böyük problemlər yaradır. Bir Laçın dəhlizi Qarabağda olan separatçılar üçün çıxış yolu, qanedici variant deyil. Onlar hələ indi-indi müharibənin şokundan ayılmaq istəyirlər. Hələ ki, rasional düşüncəyə sahib olmadıqlarına görə, Azərbaycanla yeni münasibətlərin qurulmasına hazır olmadıqlarını göstərirlər. Bu gün bizim üçün hədəf beynəlxalq güclərin ermənilərin xeyrinə prosesə müdaxilə etməməsidir. Biz bu qələbəni sahədə addım-addım gerçəkləşdirməliyik.

Birinci növbədə, Naxçıvan yolunun açılışı, əraziləri minalardan təmizlənərək məskunlaşmanı və infrastruktur layihələrin açılışını həyata keçirməliyik. Ona görə də əsas detallardan yayınaraq əvvəlki kimi bir "Topxana meşəsi" barədə çağırışlar edəcəyiksə, əsas mahiyyət arxa planda qalacaq, yenə də prosesi istədiyimiz istiqamətdə aparmaqda çətinlik çəkəcəyik. Ona görə də "sülhməramlı kimlərəsə nəsə dedi, kimlərəsə xoş baxmadı, kimlərləsə görüşdü-öpüşdü", - deyə xırda detallar üzərində beynimizi yormamalıyıq. Çalışmalıyıq ki, vəziyyəti daha geniş şəkildə tənzimləmək üçün səfərbər olaq. Təbii ki, mübahisə doğuran detallara da diqqət yetirməliyik. Kiçik detallar üzərində mübahisələr edib enerjimizi vaxt öldürməyə sərf etməməliyik. Qarşımızda açılan variantları çözməyə çalışmalıyıq.

***- Təbii ki, 30 ildən sonra "Topxana meşəsi" məsələsinə təsadüfən toxunmadınız. Sizcə, bu narahatlığa əsas yoxdur?***

- Sülhməramlılarla bağlı narahatlıqlar onsuz da gözlənilən idi. Rusiya sülhməramlılarının birmənalı şəkildə bizim arzuladığımız mövqedən davranmayacağını əvvəlcədən proqnozlaşdırmışdıq. Sadəcə sual yaranır: başqa sülhməramlılar necə davranardı? Yəni buna bir alternativ variantımız varmı? Ona görə də biz sülhməramlıların davranışları ilə bağlı tənzimləyici çalışmalara girişməliyik. Bunun da yolu sadəcə Qarabağda həll olunmur. Bu, siyasi masa arxasında həll olunur. Azərbaycan dövləti bu istiqamətdə addımlarını atır. Siz diqqət edirsinizsə, sülhməramlıların addımları, davranışı ilə bağlı açıq fikirləri Türkiyə tərəfi də dilə gətirir. Bu proses elə bizim istədiyimiz ideal səviyyədə olacaqdısa, o zaman Qarabağı tamamilə boşaldıb məsələni birdəfəlik həll edərdik də. Elə şərtlər, elə çətinliklər var ki, onu bir neçə mərhələdə aşmaq məcburiyyətindəyik. Ona görə də məsələləri həll edərkən biz bunu düşünməliyik. Bizim 3 rayonumuzu itkisiz azad etməyimiz göstərdi ki, hər halda diplomatiyamız, uzaqgörənliyimiz təqdir olunan səviyyədədir. Ona görə də biz cəmiyyəti hansısa narahatedici xırda detallar üzərində səfərbər etmək əvəzinə, əlimizdə olanların sabit qalmasına yönəltməliyik.

***- Cəmiyyətdə rus sülhməramlı qüvvələrinin statusunun qanunla tənzimlənməsi məsələsi irəli sürülür. Milli Məclis bu istiqamətdə hansı qərarı verə bilər?***

- Əlbəttə, Milli Məclis bu istiqamətdə qanunvericilik bazası ilə bağlı addımlar atmalıdır. Bütün bu danışıq prosesi, sazişlər, memarandumların imzalanması hökumət tərəfindən aparılıb. Milli Məclis də bunu qanunvericilik istiqamətində yaxın gələcəkdə tənzimləməlidir. İndiki zamanda praktiki problemlərin çözümü istiqamətində addımlar atılırsa, qəbul olunan qərarlar əldə olunan razılaşmaların istiqamətinə fayda gətirməyə bilər. Biz hələ ki, dövlət olaraq diqqətimizi 10 noyabr bəyanatına, ondan sonra 11 yanvarda bağlanan bəyanatını yürütməyə üstünlük veririk. Bəzən qanunvericilikdə məhdudlaşdırıcı addım atmaq, bu bəyanatın da praktik icrasına müsbət təsir göstərməyə bilər. Ona görə də biz bu imkanları real şərtlərə uyğun aparırıq. Ən doğru yanaşma da budur. Biz çalışmalıyıq ki, bu prosesi bizim arzuladığımız məcraya gətirə bilək.

***- Fazil bəy, sülhməramlıların gəlişi ilə bağlı yaranan bədbinlik səbəbindən Sərdar Cəlaloğlu 3-cü Milli İstiqlaliyyət Hərəkatının yaranacağını deyir...***

- Güman etmirəm ki, burada hansısa bir dirçəliş, oyanış zərurətinə ehtiyac olsun. Bu yenidən bir populizmin, proseslərin əleyhimizə çevirə biləcək anlayışın cücərməsi deməkdir. Buna da cəhd edən kifayət qədər qüvvələr var. Burada söhbər başqadır. Müharibə dövründə, təbii ki, ordumuzun da müəyyən çatışmazlıqlarını bilirdik, orada olan elementlərin 30 ildə ordumuza hansı zərbələri vurduğu barədə bilgimiz var idi. Bütün bu çətinliklərə baxmayaraq, ölkə Prezidenti Ali Baş Komandan olaraq uğurlu konsepsiya yürütdü və bizi qələbəyə çatdırdı. Ordumuz erməni ordusunun müəyyən bir arsenalını darmadağın etdi, müəyyən yerə qədər getdik. Çox adam bu qələbəyə möcüzə kimi yanaşdı. Möcüzə baş verdisə, bu kimin hesabına oldu. Demək, bu, arxa planda aparılan hazırlığın, ölkə başçısının iradəsi hesabına baş verdi. Belə bir vəziyyətdə niyə bu inamı davam etdirməyək? İndi sanki hamıda bir şübhə toxumu, kin səpmək kimi bir azar var. Bilməliyik ki, sülhməramlıların gəlişi hansısa bir şəkildə prosesin tənzimlənməsi prezidentin imzaladığı bəyanata əsaslanır. Kim bizə durub söyləyə bilər ki, o bu məsələyə İlham Əliyevdən daha vətənpərvər yanaşır. İlham Əliyevin bu müharibədə vətənpərvərliyi göründü. İndi niyə biz o dövrün vətənpərvərliyini, indiki dinc dövrə şamil etməkdə çətinlik çəkirik? Halbuki indiki dövrdə bütün danışıqlar onun ətrafında gedir. Moskvaya gediş də onunla bağlı idi. Azərbaycan dövlətini təmsil edən şəxsin ermənilərin mövqeyini möhkəmlətmək, yaxud da gücləndirmək istiqamtində hansı güzəşti ortaya çıxıb ki, bu cür inamsızlıq ifadə olunur. Ona görə də məncə imkan yaratmaq lazımdır ki, Azərbaycan diplomatik cinahda məsələni tədricən çözməyə başlasın. Yoxsa məsələləri hisslərimizin - "xoşuma gəlir, ya gəlmir" - prinsipi üzərinə daşıyıb, dediyim kimi, prosesi "Topxana meşəsi" harayına çevirsək doğru olmaz.

O vaxt Rusiya ilə danışıqlar apararaq OMON, ovaxtkı mümkün olan hərbi birləşmələr vasitəsilə torpaqlarımızı təmizləmə əməliyyatı keçirməyimiz yaxşı idi, yoxsa "Topxana harayı" ilə 1 milyon insanın özünü məşğul etməsi?! Təbii ki, etiraz vacibdir, amma bütün insanların hisslərini, enerjisini yardımçı məsələlərə yönəldəndə düşmən əsas məsələ üzərində birləşir və öz istəyini həyata keçirə bilir.

***- Hazırkı birliyi pozmaq üçün deyilən "xarici təsirlər, 5-ci kolon"-un təxribatçı addımlar atması indiki şəraitdə nə dərəcədə mümkün ola bilər?***

- Azərbaycanda "5-ci kolon" deyilən anlayış doğru deyildir. "5-ci kolon" konkret olaraq hansısa bir ölkənin sifarişini yerinə yetirməlidir. Burada agentura şəbəkəsindən söhbər gedir. Şəbəkə ifşa olunub ortaya çıxarılmalıdır. Bütövlükdə Azərbaycanın gələcəyi ilə bağlı əhval-ruhiyyələr bir qədər fərqlidir. Kimisi Rusiya ilə gələcəyin tənzimlənməsinə üstünlük verir, kimisi Qərb, kimisi Türkiyəyə inteqrasiya yolunu dəstəkləyir. Heç kimin modeli sınaqdan çıxmış model kimi görünmür. Hansı dövlət birinə yaxınlaşdıqca, digər dövlətlərlə düşmən olma ehtimalı yaranır. Ona görə də ağıllı yol hər biri ilə balansın düzgün qurulmasıdır. Biz bu müharibədə gördük ki, doğru balans quranda uğur qazanmaq olur. Bu baxımdan da mən bu ittihamları da artıq yorucu hesab edirəm. Kimsə-kimisə bəyənmirsə, "Sən satqınsan, sən xəyanətkarsan", - deyir. Nə bilim, Azərbaycanda bir sürü axmaq var, durub deyəndə ki, Elçibəyi satdınız, başa düşmək olmur ki, vəfat edəndən sonra niyə onu satmalıyıq? Tutaq ki, Əbülfəz Elçibəy vəfat edənə qədər bütün dəstəyimizi əsirgəmədik, həmişə bir yerdə olduq.

Siyasət ideyalar, fikirlər, görüşlərlə yürüyur. Hansı yolu faydalı hesab edirsənsə onu davam etdirirsən. Şəxslərə bağlılıq "ipi" yoxdur. Siyasətdə xalqın marağı və ona uyğun siyasət istehsal prinsipi etmək var. Bu havanı çox görmüşük. Azərbaycanda Rusiyanın, İranın, Qərbin gizli agenturası var. Onlar da Azərbaycanın əleyhinə istənilən tezisi qabarda bilirlər. Amma kimlər ki, kankret tarixi dövrdə çıxış yolunu hansısa dövlətlə münasibətlərdə görürlərsə, o başqa məsələdir.

Əvvəllər bizim də Rusiyaya münasibətdə sərt baxışlarımız var idi. Amma Qarabağın azadlığı Rusiya ilə hansısa anlaşmadan keçirsə, mənim antirusiya mövqeyi tutmağım siyasətdə səfehlikdən başqa bir şey deyildir. Məsələn, mən Türkiyə ilə münasibətlərin həmişə yaxın olmasını müdafiə edən bir mövqedəyəm. Elə məsələlər var ki, bizim istəyimizdən, iradəmizdən asılı olmayaraq baş verir. Vaxtilə Türkiyədə kimsə Rusiya ilə yaxınlaşırdısa ona deyirdilər bu kommunistdir. İndi yaxınlaşana deyirlər ki, realistdir. Ona görə də siyasəti daha dinc müstəviyə gətirmək daha doğrudur.

*✍ Tahirə Qafarlı*

## PREZİDENTƏ YAZIRLAR



**Sənan Kərimov, Şirvan:**

- Hörmətli cənab Prezident,

Allah Sizi və ailənizi qorusun! Nə yaxşı ki, varsınız. Nə yaxşı ki Sizin kimi müdrik bir Prezidentimiz var. Uca Rəbbim Sizi bizlərə çox görməsin. Yaşlı atam, anam hər zaman Sizin üçün dualar edirlər. Biz ailəliklə Sizi çox istəyirik.

Siz ümummilli liderimiz Heydər Əliyevin uğurlu siyasətini layiqincə davam etdirərək, Azərbaycanı dünya miqyasında inkişaf etmiş ölkələr səviyyəsinə qaldırdınız. Bu gün ölkəmizi Sizin sayənizdə dünyanın hər bir yerində tanıyırlar. Eyni zamanda Milli Ordumuz dünyanın ən güclü orduları sırasındadır. Sizin ordu quruculuğu sahəsindəki yorulmaz fəaliyyətinizin nəticəsidir ki, hazırda bütün xalqımız və müzəffər Ordumuz möhtəşəm qələbənin əzmini yaşayır.

Bütün Azərbaycan xalqı Sizi çox sevir, cənab Prezident. Biz birlikdə güclüyük! Yaşasın Ali Baş Komandanımız! Yaşasın müzəffər Ordumuz! Allah Sizi daim uca etsin!

---

**Məhbubə Nəsibova, Ağcabədi:**

- Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan!

30 ilə yaxın müddət ərzində işğal altında olan torpaqlarımızın, doğma Laçınımızın azad edilməsində göstərdiyiniz əzmkarlığa görə və bizə möhtəşəm qələbə sevincini yaşatdığınız üçün Sizə ürəkdən minnətdarıq.

Azərbaycanın bugünkü uğurları məhz Sizin sayənizdə ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. Eyni zamanda Sizin fədakar əməyinizin və yorulmaz fəaliyyətinizin bəhrəsi olaraq bu gün Azərbaycan dünyada qüdrətli ölkələrdən birinə çevrilib. Buna görə Sizinlə qürur duyuruq.

Cənab Prezident, biz həmişə Sizə inanmışıq, bu gün də inanırıq. Biz Sizinləyik. Biz laçınlılar doğma yurd yerlərimizə qayıtmaqla, Qarabağımızın hər bir guşəsinin yenidən dirçəldilməsində yaxından iştirak edəcəyimiz günü səbirsizliklə gözləyirik.

**Allah Sizi qorusun!**

---

**Suqra Mehdiyeva, Bakı:**

- Hörmətli cənab Prezident,

Siz Qarabağ məsələsini son dərəcə ustalıqla, ən az itki ilə, böyük qətiyyətlə həll etməklə, müdrik Azərbaycan xalqının öz seçimində yanılmadığını göstərdiniz. Sizin "dəmir" yumruğunuz dostlarımızın güvənc yeri, düşmənlərimizin isə qorxu mənbəyi oldu. Məhz Sizin yürütdüyünüz uğurlu siyasət nəticəsində döyüş meydanında qazandığımız parlaq qələbə gözəl nəticələrə gətirib çıxartdı. Siz Azərbaycan xalqını çiyinlərində olan yükdən azad etdiniz. Buna görə bütün xalqımız Sizə həmişə minnətdar olacaq.

Cənab Prezident, bu illər ərzində Siz hər bir azərbaycanlının Prezidenti olduğunuzu öz əməllərinizlə sübut etmisiniz. Daim qlobal məsələlərlə məşğul olduğunuza baxmayaraq, hər bir vətəndaşın kiçik problemlərinin həll edilməsinə də diqqət ayırırsınız. Mənim problemim də çox qısa zamanda Sizin göstərişinizlə öz həllini tapdı. Buna görə həm Sizə, həm də Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya dərin təşəkkürlərimi bildirir, bundan sonrakı fəaliyyətinizdə sizlərə böyük uğurlar, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

---

**Şirməmməd Fərəcov, Lerik:**

- Hörmətli cənab Prezident,

Sizin müdrik siyasətiniz və müzəffər Ordumuzun gücü sayəsində işğal altında olan torpaqlarımız geri qaytarıldı, ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Bu möhtəşəm qələbəyə görə Sizə təşəkkürümü bildirirəm.

Mən artıq 30 ildir ki, birinci qrup əliləm. Biz əlillərə göstərdiyiniz diqqət və qayğıya görə Sizə sonsuz minnətdaram. Azərbaycanımızın günü-gündən inkişafı və çiçəklənməsi bizi sevindirir və fərəhləndirir. Şəhər və rayonlarımızdakı abadlıq və quruculuq işləri ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər ürəkaçandır.

Sizə möhkəm cansağlığı, uzun ömür arzulayır, gələcək fəaliyyətinizdə isə yeni-yeni uğurlar diləyirəm.

**Allah Sizi qorusun!**

---

**Burak Dəmirdən, Bursa, Türkiyə:**

- Əziz və hörmətli Prezident İlham Əliyev.

Sizə necə təşəkkür edəcəyimi sözlə ifadə etməkdə çətinlik çəkirəm. Vətən müharibəsində qazandığınız Zəfər bütün dünyaya Sizin hərbi və siyasi dühanızı nümayiş etdirdi. Siz erməniləri məhv etdiniz, bizim isə könlümüzü fəth etdiniz. Əminəm ki, Sizin rəhbərliyiniz altında Azərbaycan daha da inkişaf edəcəkdir. Həyat yoldaşımla qərar vermişik ki, oğlumuz olarsa, adını Heydər İlham qoyacağıq.

Bizim Sizdən tək istəyimiz Sizin əlinizi öpüb, Qarabağ torpağına ayaq basmaqdır. Sizin sayənizdə düşmənləri "iti qovan kimi qovduq torpaqlarımızdan". Bu gün alnıaçıq, üzüağ, qürurla deyə bilərəm ki, Füzuli bizimdir, Zəngilan bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Xocalı bizimdir, Şuşa bizimdir, Ağdam bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**Eşq olsun Azərbaycan Ordusuna! Eşq olsun Azərbaycanın Prezidenti möhtərəm İlham Əliyevə! Üçrəngli Bayrağınla məsud yaşa, Azərbaycan!**

---

**Kamran Rüstəmov, Bakı:**

- Hörmətli cənab Prezident,

Bu minnətdarlıq məktubunu yazmağı özümə borc bilirəm. Sizə olan rəğbətim və inamım sonsuzdur. 44 gün ərzində indiyədək heç bir sərkərdənin qazanmadığı bir qələbənin sevincini, qürurunu bizə yaşatdınız. Sizin sayənizdə doğma torpaqlarımız geri qaytarıldı, xalqımızın uzun sürən həsrətinə son qoyuldu.

Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliklə hazırlayıb həyata keçirdiyi strategiya və Ulu Öndərimizin layiqli davamçısı kimi Sizin müdrik siyasətiniz və rəhbərliyiniz nəticəsində bu gün Azərbaycanımız siyasi-hüquqi və iqtisadi baxımdan qüdrətli bir dövlətə çevrilmişdir. Buna görə bütün xalq Sizə minnətdardır.

Allahdan Sizə və ailənizə möhkəm cansağlığı, uzun ömür arzulayır, dövlətimizin işıqlı gələcəyi və xalqımızın rifahı naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

## Statistika

**2021-ci il yanvar ayının 1-i vəziyyətinə ölkədə fəaliyyət göstərən 1 684 dövlət və 156 qeyri-dövlət məktəbəqədər təhsil müəssisəsində 129 min uşaq tərbiyə alır. 2020/2021-ci tədris ilinin əvvəlinə ölkənin 4 397 dövlət və 34 qeyri-dövlət ümumi təhsil müəssisələrində (hazırlıq siniflərində oxuyanlar da daxil olmaqla) 1,7 milyon şagird təhsil alıb.**

Bundan əlavə, sağlamlıq imkanları məhdud olan 6,4 min uşağın təhsil aldığı 16 xüsusi məktəb və ya ümumi təhsil müəssisələrində təşkil edilmiş xüsusi siniflər fəaliyyət göstərib. Ümumi təhsil müəssisələrində ikinci və üçüncü növbələrdə təhsil alan şagirdlərin xüsusi çəkisi 22,1 faiz olub. 2020/2021-ci tədris ilinin əvvəlinə şagirdlərinin sayı 79,2 min nəfər olan 113 dövlət liseyi və gimnaziyası fəaliyyət göstərib. Dövlət müəssisələrinin ümumi sayında məcburi köçkün uşaqlar üçün 582 əyani ümumi təhsil müəssisəsi fəaliyyət göstərir və burada 103,7 min nəfər şagird təhsil alır. 2020-ci ildə əyani ümumi təhsil müəssisələrini bitirən 74,1 min nəfər məzundan 73,6 min nəfəri və ya 99,3 faizi tam orta təhsil haqqında attestat alıb. Rəsmi məlumata görə, 2020/2021-ci tədris ilinin əvvəlinə ölkədə fəaliyyət göstərən 61 orta ixtisas təhsil müəssisəsində 60 min tələbə təhsil alıb, onların 62,4 faizini qadınlar təşkil edib.

# Vətən Müharibəsi Memorial Kompleksi

### Türkiyə və Azərbaycan qardaşlığının rəmzinə çevrilən layihə

◂ əvvəli 1-ci səhifədə

***- Sizcə, muzeyin xüsusi güşəsi hara olacaq?***

- Muzeyin xüsusi güşəsi "Şəhidlər zirvəsi" adlı zal olacaq. Burada Vətənimizin azadlığı, müstəqilliyi uğrunda canından keçmiş bütün milli qəhrəmanlarımızın birə-bir hoioqramı yaradılacaq. Biz normal insanları necə görürüksə, holoqram vasitəsilə şəhidlərimizi də canlı görə biləcəyik.

***- Ümumilikdə, muzey kompleksi eyni anda neçə ziyarətçini qəbul edə bilər?***

- Yaradılacaq smart-muzeydə eyni anda 350 nəfər ziyarətçini qəbul etmək mümkün olacaq.

***- Hal-hazırda layihə ilə bağlı işlər nə yerdədir?***

- Hazırda layihə ilə bağlı görülən işlər konseptual təklif formasındadır. Layihənin konsepsiyadan çıxıb layihə formasına düşməsi üçün bütün komandamız hazırdır və əmr gözləyirik. Dövlət başçısına, vitse-prezidentə, Mədəniyyət Nazirliyinə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısına da layihə göndərilib.

***- Dediniz ki, təşəbbüs sizə aiddir. Bəs kompleksin yaradılmasında daha kimlər maraqlıdır?***

- Layihənin reallaşdırılmasında həm Türkiyə, həm də Azərbaycan tərəfi maraqlıdır. Biz bu konsepsiyanı təmənnasız olaraq hazırlamışıq.

***- Konsepsiya ilə bağlı yerli memarlardan yeni fikir və təkliflər qəbul edilir?***

- Biz yeni ideyalara və fikirlərə hər zaman açığıq. Əgər kimsə öz fikirləri ilə layihəyə töfhə verə biləcəksə, niyə də olmasın?



***- Layihənin ərsəyə gəlməsində əsas rol oynayan şəxslərdən kimlərin adlarını çəkə bilərsiniz?***

- Layihənin əsas aparıcı qüvvələri kimi, yerli memarlardan Anar Quliyev, Seyfəddin Vəliyev, xarici memarlardan isə Osman Yılmaz, dizayner Əndər bəyin adlarını çəkmək olar.

***- Bəs maliyyələşdirmədə necə, kimlər kompleksin reallaşdırılmasına dəstək olur?***

- Bu layihəyə heç bir sponsor axtarılmır. O, şəhidlər üçün nəzərdə tutulub və tikintisi, ancaq Ali Baş Komandanın əmri ilə mümkündür.

Qeyd edək ki, "İstiqlal zirvəsi" adını daşıyan layihənin paytaxtın ən yüksək nöqtələrindən olan Şəhidlər xiyabanının yaxınlığında tikiləcəyi gözlənilir.

*✍ Banu*

# Ailə dəyərləri

*Ekspertlər hesab edirlər ki, qloballaşma dövründə bu dəyərlərin qorunması üçün valideynlərin üzərinə böyük məsuliyyət düşür*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

MEDİA

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Ailə hər bir cəmiyyətin özəyi olmaqla yanaşı, həm də milli-mənəvi dəyərlərin daşıyıcısıdır. Ailə bir sistem olaraq özündə çoxtərəfli münasibətləri ehtiva edir. Bu, ayrı-ayrılıqda həm valideynlər, həm də övladlar arasındakı münasibətləri, həmçinin valideyn-övlad münasibətlərini ifadə edən, nənə və babaların, müxtəlif nəslin nümayəndələrinin, qohumların da daxil olduğu geniş bir sistemdir. Müasir dünyada ailə institutu sosial, mədəni və siyasi dəyişiklikləri əks etdirən dinamik sosial təsisat kimi çıxış edir. Bu səbəbdən zamanın çağırışlarına uyğun olaraq ailə institutunun funksiyalarına mütəmadi olaraq yeni elementlər daxil olur. Ekspertlər hesab edirlər ki, son dövrlərdə qloballaşma şəraitində baş verən bir sıra proseslər, o cümlədən, mədəni dəyərlərin inteqrasiyasının güclənməsi, informasiya texnologiyalarının sürətli inkişafı nəticə etibarı ilə cəmiyyətdə bir sıra



**Əhməd Qəşəmoğlu,**
sosioloq

*“Azərbaycanın ailə modeli, ailə institutu ölkənin ən böyük mənəvi dəyərlərindən biridir”*

ənənəvi dəyərlərin itirilməsinə, klassik ailə modelinin aşınmasına və ailələrin cəmiyyətdəki sosial statusunun zəifləməsinə səbəb olub. Onların fikrincə, bu gün qloballaşma və modernləşmə dövründə valideynlərin üzərinə çox böyük məsuliyyət düşür. Ailələr texnoloji və iqtisadi inkişaflar və xüsusilə qloballaşmanın gətirdiyi yeniliklər və təhlükələrlə üz-üzədir. Ekspertlər hesab edirlər ki, milli və mənəvi dəyərlərimizi yad elementlərə qurban verməməliyik. Bu məsələdə cəmiyyət olaraq həmrəylik nümayiş etdirməliyik.

Qeyd edək ki, əslində, Azərbaycan ailəsi uzunömürlülüyü və möhkəmliliyi ilə dünyada ən yaxşı modellərdən biridir. Dövlət bu modelin qorunub saxlanılması üçün müxtəlif siyasi proqramlar hazırlayır, sosial layihələr həyata keçirir. Ailənin inkişafı və sosial təminatı, qadın və uşaq hüquqlarının müdafiəsi, gənc ailələrə mənəvi dəstək prinsipləri “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında öz əksini tapıb.

Həmin Konsepsiyaya əsasən Azərbaycan Ailəsi Strategiyasının, Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının, Ailə Psixoloqu İnstitutunun hazırlanması nəzərdə tutulur. Respublikamızda cəmiyyətə layiqli, sosial-mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşmasında məqsədyönlü işlər aparılır.

Məlumdur ki, Azərbaycan dövləti ailə institutunun qorunması istiqamətində güclü qanunvericilik bazasına malikdir. Bütün bunlara baxmayaraq, nikahın pozulması və ümumilikdə ailə institututnun dağılması halları ilə bağlı rəsmi statistik rəqəmlər bu sahədə həlli vacib problemlərin hələ də qaldığını göstərir.

■ **Mövzu ilə bağlı fikirlərini bizimlə bölüşən sosioloq Əhməd Qəşəmoğlu bildirir ki, ailə cəmiyyətin sosial mərkəzi olduğundan, həmin mərkəzin idarəsində ahəng önəmlidir:** “Azərbaycanın ailə modeli, ailə institutu ölkənin ən böyük mənəvi dəyərlərindən biridir. Gərək bilək ki, ən böyük mənəvi dəyərimiz ailə institutudur və onu qorumalıyıq. İndi dünyada elə proseslər gedir ki, mənəvi problemlər arxa plana keçməkdə, maddi dəyərlər önə çıxmaqdadır. Bu, bizim cəmiyyətdə də baş verir. Ən xoşagəlməz hal budur ki, maddi dəyərlərə üstünlük verdiyimiz halda, mənəvi dəyərlərimiz çox güclü təzyiqə məruz qalır, bundan da ailə və cəmiyyət zərər görür. Çalışmaq lazımdır ki, ailədə mənəvi dəyərləri ön sırada saxlayaq. Bu, ailənin cəmiyyətdə sağlam yer qazanmasına kömək edəcək. Adət-ənənələrin gündəlik yaşayış tərzimizdən uzaqlaşdırılması sonda ailə institutunun deformasiyaya uğramasına və ailələrin dağılmasına gətirib çıxarır. Amma bu və ya digər səbəblər üzündən cəmiyyətin bəzi üzvləri tərəfindən bu dəyərlər göz önünə alınmır və sonda xoşagəlməz hallar baş verir. Bu hallar isə ilk növbədə, ailələrə, daha sonra isə cəmiyyətə təsir edir».

Onun fikrincə, hazırda Azərbaycan xalqı çox qiymətli ailə dəyərlərini itirmək təhlükəsi ilə üz-üzə qalıb: “Bu, çox ciddi məsələdir. Biz ailə dəyərlərimizi nə özümüz dərk etdik, nə də başqa xalqlara nümunə göstərə bildik. Əslində, bizim ailə dəyərlərində digər xalqların öyrənməsi üçün çox şey var. Aidiyyəti qurumlar bu məsələyə diqqəti daha da artırmalıdırlar. Bunun üçün xüsusi proqramların həyata keçirilməsinə ehtiyac duyulur. Azərbaycanda ailəyə münasibət 20-30 il əvvəlin münasibəti deyil; məsələn, indi gənclər evlənərkən nə valideynləri ilə yaşamaq, nə də valideynlər övladlarını evləndirib yanlarında saxlamaq istəyirlər. Digər tərəfdən, hazırda Azərbaycan ailəsində ciddi psixoloji gərginlik müşahidə edilir ki, biz bu gərginliyi indiyədək hiss etməmişik. Təbii ki, mövcud gərginlik gənclərin psixologiyasına mənfi təsir göstərir.Tutaq ki, bir uşaq doğulduğu evdə həmişə dava-dalaş, zorakılıq görürsə, o uşaqdan böyüyəndə ailə haqqında hansı müsbət təsəvvür gözləmək olar. Əgər ailələrdə əmin-amanlıq, qarşılıqlı hörmət olarsa, bu, gənclərimizin də düşüncəsinə müsbət təsir göstərər».

Ailə dəyərləri ilə bağlı mövzuların dərsliklərə salınması məsələsinə münasibət bildirən təhsil eksperti Kamran Əsədovun fikrincə, təhsil sisteminin daxilində şagirdlər o formada hazırlanmalıdır ki, onlar müstəqil həyata, eyni zamanda əmək bazarına bir çox bilik və bacarıqlara yiyələnmiş halda daxil olsunlar: “Təhsilin əsas məzmunu və vəzifəsi şagirdi əmək fəaliyyətinə hazırlamaq, onların məzmun məqsədlərini həyata keçirmək üçün bir sıra informasiyaları təhsilalanlara verməkdir. Təəssüf ki, bu gün Azərbaycanda və bölgələrimizdə, eyni zamanda, paytaxtda erkən nikaha cəlb olunma prosesi gedir. Bununla bağlı YUNİSEF-in konkret rəqəmləri vardı. 2013-cü ilə qədər Azərbaycanın paytaxt və bölgələrində 5000-dən çox gənc erkən nikahlara cəlb olunurdu.

Həmin ildən sonra bu rəqəm dəfələrlə azalaraq Səhiyyə Nazirliyinin də verdiyi rəqəmlər əsasında il ərzində 500 nəfər civarında müəyyənləşib.Hesab edirəm ki, təhsilin məzmununun formalaşdırılması zamanı təhsilalanlara müəyyən informasiyaların verilməsini zəruridir. Bu informasiyalar birbaşa təhsilin məzmunu ilə üst-üstə düşməlidir. Elə informasiyalar verilməlidir ki, auditoriya düzgün seçilsin.

Yəni əgər Azərbaycanda erkən nikahlarla bağlı informasiyalar dərsliklərdə veriləcəksə, bu, dərslik siyasətinin prinsipləri ilə müəyyən qədər ziddiyyət təşkil edir. Dərsliklərin məzmununa verilən tələblər var. Yəni dərsliklərdə şagird Azərbaycan xalqının milli-mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmalıdır.

Dərsliklərdə onların öz ailəsini, vətənini və xalqını sevməsinə, insan haqlarına, bəşəri dəyərlərə hörmət etməsinə yönələn ideyalar əksini tapmalıdır. Eyni zamanda, şagirdlərin yaş psixologiyası və fizioloji xüsusiyyətləri nəzərə alınmaqla dərsliklər yazılmalıdır. Dərsliklərdə dünyəvi prinsiplərə riayət edilməlidir”.

■ **Mövzu ilə bağlı fikirlərini açıqlayan psixoloq Elnur Rüstəmov isə hesab edir ki, azərbaycanlı psixologiyasında ailə faktoru digər xalqlarla müqayisədə daha dərin və uzunömürlüdür.** Onun sözlərinə görə, daha çox gənclərin “geridəqalmışlıq” hesab etdiyi adətlər sayəsində yüz illərdir ölkəmizdə normal cəmiyyət, sağlam toplum yaratmaq mümkün olub: “Bizim ailələrdə valideyn, hətta övladını evləndirdikdən sonra belə öz yanından ayırmır, bir evdə yaşamaq istəyir. Amma bir çox ölkələrdə uşağın 15-16 yaşı olan kimi valideyn tələb edir ki, get işlə, özünə ev tut, yaşa. Onlar üçün doğmalıq anlayışı yoxdur, ailədə hər kəs öz qazancı ilə yaşayır. Ona görə də cəmiyyətləri möhkəm deyil, ailə cəmiyyətə xeyir verə bilmir. Bu “xeyir” maddi yox, mənəvi



**Elnur Rüstəmov,**
psixoloq

*“Bizim ailələrdə valideyn, hətta övladını evləndirdikdən sonra belə öz yanından ayırmır, bir evdə yaşamaq istəyir”*

məna kəsb edir. Yəni, bu cür ölkələrdə ailələr cəmiyyətə yararlı fərdlər yetişdirmir”. Ekspert, həmçinin bildirir ki, sağlam ailənin təməli həm də sağlam evliliklə qoyulur: “Gələcək ailənin hər iki fərdi bir-birini anlamaqla yanaşı, fiziki və mənəvi göstəricilərinə görə də uyğun gəlməlidir. Ailədəki hər xırda narazılıqdan böyük problem yaradan tərəflərin sağlam ailə qurmaq şansı az olur ki, bunun zərərini də cəmiyyət çəkir”.

## Yeri gəlmişkən

**Azərbaycanda ailə dəyərləri, reproduktiv sağlamlıq və ailə planlaşdırılması ilə bağlı mövzular ümumi təhsil üzrə müvafiq dərsliklərə daxil ediləcək.**

Bu, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı”nda əks olunub. İşin icrası Təhsil Nazirliyi və Səhiyyə Nazirliyinə tapşırılıb. Milli Fəaliyyət Planının əsas məqsədi ölkədə məişət zorakılığının qarşısının alınması üzrə tədbirlərin beynəlxalq standartlara uyğunlaşdırılması, ailələrin möhkəmləndirilməsi naminə onların vaxtında və hərtərəfli yardımla təmin edilməsi, məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi aktlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və səmərəliliyinin artırılmasıdır.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Ali təhsil sistemində yeni standartlar

**Azərbaycanda ali təhsil sistemi yeni mərhələyə qədəm qoya bilər. Bununla bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi gözlənilir. “Ali təhsil haqqında” qanun layihəsi də hazırlanıb və ötən həftə parlametdə müzakirəyə çıxarılan sənədin detalları onu deməyə əsas verir ki, yaxın gələcəkdə Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin beynəlxalq rəqabətliliyi daha da artırılacaq. Bununla bağlı keçirilən müzakirələrdə Təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan təhsilinin qarşısında dayanan mühüm məsələ olan “Ali təhsil haqqında” qanun layihəsinin hazırlanması məqsədilə bu cür geniş müzakirənin keçirilməsi təqdirəlayiqdir:**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

MEDİA

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

*Bu sahədə nəzərdə tutulan qanun layihəsi qəbul olunarsa, Azərbaycanda fəaliyyət göstərən universitetlərin beynəlxalq rəqabətliliyi arta bilər*

“Hazırda ölkəmizdə 51 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Onların 20-si Təhsil Nazirliyinin tabeliyində, 13-ü digər nazirlik və komitələrin nəzdində fəaliyyət göstərir, 11-i özəl, 7-si isə xüsusi təyinatlıdır”. Sonra nazir hazırlanacaq qanun layihəsinin əsas məsələləri barədə məlumat verib. Təhsil naziri təhsil sisteminin iştirakçıları, ali təhsilin əlçatanlığı, təhsilin keyfiyyəti, səmərəliliyi, idarəetmə prosesi, ali təhsilin mövcud maliyyələşmə mexanizmləri, təhsilin beynəlxalq standart üzrə təsnifatı, təqaüdlər, tələbə kreditləri, tədris və təlim prosesi, təhsilin iqtisadiyyatı, təhsilin keyfiyyətinə nəzarət və təhsilin formaları barədə fikirlərini bölüşüb, qanun layihəsində nəzərə alınmalı olan məsələləri diqqətə çatdırıb.



Qeyd edək ki, Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə də göstərilib ki, yaxın illər ərzində ali təhsil haqqında qanunun və dövlət proqramının qəbul edilməsi məsələsi nəzərdən keçiriləcək.

Sənəddə həmçinin qeyd olunur ki, hazırda Azərbaycanda gənclərin ali təhsillə əhatə olunma səviyyəsi aşağıdır. Bu da uzaq perspektivdə ölkənin rəqabət qabiliyyətli və dayanıqlı inkişafına maneə yarada bilər. Yüksək ixtisaslı kadr hazırlığının əmək bazarının tələbinə və beynəlxalq ixtisas təsnifatına uyğunlaşdırılması, uzunmüddətli proqnozlaşdırma mexanizminin hazırlanması istiqamətində fəaliyyətlər, əmək bazarında diferensiallaşmış əməkhaqqı və stimullaşdırma sisteminin yaradılması üzrə mexanizmlərin hazırlanması dəstəklənəcək: ”Ali təhsil insan kapitalının formalaşmasında və inkişafında mühüm mərhələdir. Hazırda ali təhsil müəssisələrində yetişdirilən mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, daha çox əlavə dəyərin yaranmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər.

Azərbaycanda gənclərin ali təhsillə əhatəolunma səviyyəsi aşağıdır. Bu da uzaq perspektivdə ölkənin rəqabətqabiliyyətli və dayanıqlı inkişafına maneə törədə bilər. Bunu nəzərə alaraq, Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması dəstəklənəcək.

*“Dünyada təqribən 20 000 universitet var ki, onlardan 2000-ni qabaqcıl universitetlərdir. Demək olar ki, bütün universitetlərlə bağlı qanunlar eynidir”*

Bunun üçün ali təhsilin keyfiyyətinin yüksəldilməsi, qlobal təhsil məkanına inteqrasiyası, ali təhsilli kadrlara tələbatın ödənilməsi, habelə ali təhsilin informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması istiqamətində islahatlar sürətləndiriləcək”.

Sənəddə o da vurğulanıb ki, yüksəkixtisaslı kadr hazırlığının əmək bazarının tələbinə və beynəlxalq ixtisas təsnifatına uyğunlaşdırılması, uzunmüddətli proqnozlaşdırma mexanizminin hazırlanması istiqamətində fəaliyyətlər, əmək bazarında diferensiallaşmış əməkhaqqı və stimullaşdırma sisteminin yaradılması üzrə mexanizmlərin hazırlanması dəstəklənəcək.

”Yol xəritəsi”ndə həmçinin göstərilib ki, universitet klasterlərinin yaradılması ”təhsil-tədqiqat-innovasiya” zəncirinin effektivliyini artıra bilər. Bu baxımdan, ölkədə, ilk növbədə, bəzi ixtisaslaşmış universitetlərdə klasterlərin yaradılması təşviq ediləcəkdir. Ali təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi nəticəsində daha keyfiyyətli insan kapitalı və intellektual potensial formalaşacaq, əmək məhsuldarlığı artacaq: ”Universitet klasterlərinin yaradılması araşdırma və təkmilləşdirmələrin həyata keçirilməsini, elmi nəticələrin istehsala tətbiqini stimullaşdıracaq, ”təhsil-elm-istehsal” əlaqələrinin səmərəliliyi yüksələcək. Klasterlərin dəstəklənməsi regionlarda insan kapitalının inkişafı üçün də əhəmiyyətlidir. Bundan başqa özəl universitetlərin müstəqilliyinin artırılması və onların inkişafı üçün stimullaşdırıcı tədbirlər görüləcək.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil eksperti Elçin Əfəndi bildirib ki, ali təhsil sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi bu sistemin beynəlxalq rəqabətliliyini daha da artıracaq:** “Layihənin tam detalları hələlik məlum deyil. Amma açıqlanan detallara əsasən onu deyə bilərəm ki, sənəddə ali təhsil müəssisəsinin beynəlxalq əməkdaşlığı önə plana çıxarılacaq. Bunun həyata keçirməsi üçün yeni qaydalar müəyyən edilib bə bu barədə “Ali təhsil haqqında” Qanun layihəsində maddə yer alıb. Maddəyə əsasən, ali təhsil sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qanunları və tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

Bildiyimiz kimi, ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ”2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”na uyğun həyata keçirilir. Ali təhsil müəssisəsinin bu qanuna, “Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq, beynəlxalq təcrübədən yararlanmaq, xarici ölkələrin ümumi təhsil müəssisələri, təşkilatları və fondları ilə əlaqələr yaratmaq, əməkdaşlıq haqqında müqavilələr bağlamaq və qarşılıqlı əməkdaşlığın digər formalarını həyata keçirmək hüququ vardır.

Hazırda ölkəmizdə 51 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Onların 20-si Təhsil Nazirliyinin tabeliyində, 13-ü digər nazirlik və komitələrin nəzdində fəaliyyət göstərir, 11-i özəl, 7-si isə xüsusi təyinatlıdır. Ola bilər ki, ali təhsillə bağlı yeni qanunvericilik bazası yaradılandan sonra bu müəssisələrin sayı artırılsın. Eyni zamanda, Azərbaycanın ali məktəb diplomlarının xarici ölkələrdə daha çox tanınması, təhsilin keyfiyyətinin artırılması, xarici tələbələrin ali məktəblərimizə axınının təmin edilməsi üçün universitetlərə əlavə hüquqi status verilsin. Yəqin ki, sənəddə bu kimi məsələlər öz əksini tapacaq”.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Şahlar Əsgərov isə bildirib ki, hazırda ali təhsil sahəsində problemlər çoxdur və başlıca məsələlərin layihədə öz həllini tapması vacibdir:** “Dünyada təqribən 20 000 universitet var ki, onlardan 2000-ni qabaqcıl universitetlərdir. Demək olar ki, bütün universitetlərlə bağlı qa-



**Şahlar Əsgərov,**
Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri

nunlar eynidir. Qabaqcıl universitetlərin qanunlarını tətbiq etsələr, kifayyət edər. Universitetlərə müstəqillik verilməlidir, əməkhaqqı, müəllim-tələbə münasibətləri qanun layihəsində öz həllini tapmalıdır”.

## Ekspert rəyi

**Ekspert hesab edir ki, “Ali təhsil haqqında” qanunda qəbul imtahanları ilə bağlı məsələlər də yer ala bilər: “Bütün dünyada universitetlər giriş qapılarını geniş açır.**

Yəni universitetlər orta məktəbi bitirib, əlində attestat olan şəxsləri qəbul etməlidir. Amma çıxış qapısını daraldıb, diplomu nadir şəxslərə - proqramı mənimsəyənlərə verməlidir. Bizdə tələbə biletinin olması hər şeydən üstün tutulur, diplomun heç bir əhəmiyyəti yoxdur. Bu natarazlıq da bərpa olunsa yaxşıdır. Biz uzun müddətdir ki, dəyərsizi dəyərlidən üstün tuturuq. Bu böyük qüsurdur. Mən həmişə nümunə göstərirdim ki, Cənubi Koreyada ali təhsilli insanların sayı 95 faiz təşkil edir. Amerikada da 85 faizdən çoxdur. Yəni küçədə gedən 100 adamın 85-i ali təhsillidir. Bu haqda çox demişəm, amma hələ də mövzu aktualdır. Biz əlimizdən gələni etməliyik ki, orta məktəbi bitirən gənci küçədə qalmasın, ali məktəbə daxil olsun. Gedib bəzi zərərli dəstələrə qatılmasın və yaxud da başqa ölkələrin bazarlarında göy-göyərti satmasın. Ali məktəbə qəbul olunsun və səliqəli- mədəni mühitdə böyüsün. Əsas məqsədimiz bu olmalı deyil ki, o uşaq universitetə qəbul olunsun və buradan gəlir əldə edim. Dövlətimizin məqsədi o olmalıdır ki, orta məktəbi quraran gənclərin əksəriyyəti ali məktəblərdə təhsil alsın”.

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Rusiyada nə baş verir?


Putin


Navalnı

*2021-ci ilin ilk ayı dünyanın iki böyük dövlətində etiraz aksiyaları ilə yadda qaldı. Yanvarın 6-da ABŞ-da Konqresə hücumun nəticələri hələ öz aktuallığını saxladığı bir vaxtda yanvarın 23-də Rusiyada ölkəboyu razılaşdırılmamış etiraz aksiyaları təşkil edildi. Dağlıq Qarabağda hazırda Rusiya sülhməramlılarının yerləşdiyi bu həssas məqamda Şimal qonşumuzda baş verən proseslər Azərbaycan ictimaiyyəti tərəfindən də diqqətlə izlənilir. Rusiyadakı aksiyaların əsas səbəbi isə bir neçə gün əvvəl Moskvaya qayıdan müxalifət lideri Aleksey Navalnının həbsi ilə bağlı idi. Etiraz aksiyalarında iştirak edən insanların sayı ilə bağlı qarşı tərəflərin səsləndirdiyi rəqəmlər də müxtəlifdir. Navalnının qərargah şəbəkələrinin rəhbəri Leonid Volkov bu rəqəmin 250-300 min nəfər təşkil edib. deyib. Korrupsiyaya Qarşı Mübarizə Fondunun direktoru İvan Jdanov Moskvada 50 mindən çox insanın razılaşdırılmamış aksiyaya çıxdığını deyib. "Reuters" agentliyi isə Moskvadakı etiraz aksiyasında 40 min nəfərin olduğunu yazıb. RF Daxili İşlər Nazirliyinin məlumatına görə, Moskvada cəmi 4 min insan aksiyalara qoşulub. "Bəyaz sayğac" layihəsinin koordinatoru Dmitri Nesterov isə 23 yanvar etirazlarını Rusiyada keçirilən son illərin ən kütləvi razılaşdırılmamış aksiyası adlandırıb.*

## Qarşıdurma

### "Putinin sarayı"

**Bir çox Qərb müşahidəçiləri bildirirlər ki, aksiyaların kütləvi hal alması tək Navalnıya dəstək üçün yox, həm də müxalifət liderinin həbsindən əvvəl Vladimir Putin haqqında hazırladığı son reportaj mühüm rol oynayıb.**

Qara dəniz sahillərində yerləşən və dəyərinin bir milyard dollardan çox olduğu deyilən «Putinin sarayı»ndan bəhs edilən bu film baxış sayına görə rekordlar qırmaqdadır. Filmə 80 milyondan artıq baxışın olduğu deyilir. Bu əmlakın öz teatrı kazinosu, hokkey kompleksi, üzüm bağı və s. var - videoda belə iddia olunur.

■ **Prezidentin mətbuat katibi Dmitri Peskov, Qara dənizin sahilindəki nəhəng saray kompleksinin federal rəsmilər tərəfindən mühafizə olunduğu barədə iddiaları "sırf cəfəngiyat" adlandırıb.** Navalnının araşdırmasına əsasən, nəhəng obyektin ümumi sahəsi Monakonun ərazisindən 39 dəfə böyükdür. Özəl iqamətgahı əhatə edən, təxminən, 70 kvadrat kilometr ərazinin sahibi Rusiya Federal Təhlükəsizlik Xidmətidir (FSB). "Buranın öz limanı, öz mühafizəçiləri, kilsəsi, öz buraxılış nəzarət sistemi, uçuşlara qadağa zonası və hətta öz sərhəd keçid məntəqəsi var", - Navalnı deyir. Navalnının sənədli filmi küçələrə çıxmaq çağırışı ilə başa çatır.

■ **Sarayla bağlı araşdırmalar aparılarkən ən çox diqqətçəkən ad "Putin sarayı"nın dizayneri, Rusiya pasportu olan italiyalı memar Lanfranko Çirillo olub.** "Mən 20 il əvvəl İtaliyadan, Bolonyadakı "Mascagni" mebel şirkətinin nümayəndəsi olaraq



bircə çamadanla gəlmişdim, bu gün isə "Forbes" siyahısında olan 116 rus milyarderindən 42-si müştərilərimdir", - deyə memar xarici mətbuata müsahibələrinin birində deyib. İddia olunur ki, Qara dəniz sahilindəki mülkün inşası da məhz ona tapşırılıb. "Azadlıq Radiosu" rus redaksiyasının 2015-ci ildə yayımladığı araşdırmada da qeyd olunub ki, Lanfranko Çirillo Putin sayəsində Rusiya vətəndaşlığı əldə edib və Rusiya dövlətinin başçısı ilə yaxın tanışlıqdan qürur duyur. "Lanfranko Çirillo indi Moskva Kremlini və Sankt-Peterburqdakı Qış Sarayını inşa etmiş italyan sələfləri kimi, nəhəng yeni bir binanın ona tapşırılması arzusundadır - Dövlət Dumasi". "La Repubblica" hələ 2014-cü ildə yazırdı ki, italiyalı memarın şöhrəti qısa zamanda ağızdan-ağıza keçərək Kremlə də çatıb. Çirillo yalnız pul qazanmaq üçün Rusiyaya gəldiyini və məqsədinə çatdığını söyləyərək fəaliyyətində qəribə bir şey görmür. O, Rusiyada ilk sifarişini - bir şəhərətrafı bağ evi dizaynına görə 1991-ci ildə Milandan olan dostunun vasitəçiliyi sayəsində alıb. Bu müştəri "Lukoil" prezidenti Vahid Ələkbərovdur. Çirillo Ələkbərovdan başqa onun müavinləri üçün də evlər tikib. Memar ümumən 43 rus milyarder üçün evlər dizayn etdiyini iddia edir.

### Qarşılıqlı ittihamlar

**23 yanvar mitinqləri ilə bağlı Avropa, ABŞ və Rusiya arasında bir-birlərinə qarşı ittiham dolu siyasi bəyanatlar verilməkdədir.** Qeyd edək ki, mitinqlər günü ABŞ-ın Rusiyadakı səfirliyi xüsusi bəyanatla çıxış edərək etiraz aksiyalarının marşrutlarının əks olunduğu bir paylaşım edib. Bu hərəkət və bəyanat Moskva rəsmiləri tərəfindən kəskin etirazla qarşılanıb.

■ **"ABŞ səfirliyinin açıqlaması Rusiyanın daxili işlərinə müdaxilədir". Rusiya Prezidentinin mətbuat katibi Dmitrii Peskov yanvarın 23-də keçirilən icazəsiz aksiyalar barədə ABŞ-ın Moskvadakı səfirliyinin yaydığı açıqlamanı Rusiyanın daxili işlərinə müdaxilə kimi dəyərləndirib.** D. Peskov "Rossiya 1" telekanalına müsahibəsində deyib ki, ABŞ səfirliyi Rusiyanın 38 şəhərində keçirilən aksiyalar barədə xəbərləri izlədiklərini, dinc aksiyaları və ifadə azadlığını dəstəklədiklərini, hakimiyyətin həyata keçirdiyi tədbirlərin isə bu hüquqların qarşısını almağa yönəldiyini bildirib.

Peskov qeyd edib ki, bu, qeyri-korrekt münasibət, dolayı yolla Rusiyanın daxili işlərinə müdaxilə, ölkədə qanunların pozulmasına dəstəkdir: "Əgər Rusiya səfirliyi ABŞ-daiğtişaşlar davam edən zaman bu formada münasibət bildirsəydi, bu, Vaşinqtonda müəyyən diskomfort hissi yaradardı. Ona görə də həmkarlarımıza həmişə bu situasiyalarda özlərini təsəvvür etmələrini məsləhət görürük".

Peskov yanvarın 23-də Moskva və digər şəhərlərdə keçirilən aksiyalarda iştirak edənlərin sayının Rusiya Prezidenti Vladimir Putini dəstəkləyənlərlə müqayisə çox az olduğunu vurğulayıb: "Hazırda bir çoxları icazəsiz aksiyalara çoxlu sayda insanın çıxdığını söyləyir. Xeyr, aksiyalara az insan çıxıb, insanların çoxu Putinə səs verir. Eyni zamanda insanların çoxu Konstitusiyaya dəyişikliklərə səs verib. Əgər rəqəmlər müqayisə olunsa, aksiyalarda iştirak edənlərin sayının nə qədər az olduğunu anlayarsınız. Bütün fikirlərə hörmətlə yanaşırıq, ancaq qəti olaraq qanunsuz aksiyalara qarşıyıq".

■ **Britaniya hökuməti də Navalnının tərəfdarlarına tətbiq olunan "şiddəti" qınayıb. Krallığın XİN rəhbəri Dominik Raab özünün "Twitter" səhifəsində rusiyalı bloggerin azad olunması tələbi ilə Rusiyanın müxtəlif regionlarında keçirilən aksiyalar zamanı dinc nümayişçilərə və jurnalistlərə qarşı şiddət tətbiq edilməsini tənqid edib.**

"Britaniya rus səlahiyyətlilərinin dinc nümayişçilərə və jurnalistlərə qarşı şiddət tətbiq etməsini pisləyir. Biz Rusiya hökumətini Avropa Şurası və ATƏT-in insan hüquqları ilə bağlı beynəlxalq öhdəliklərinə hörmət etməyə və dinc nümayişlər zamanı həbs olunan vətəndaşları sərbəst buraxmağa çağırırıq", - deyə nazir qeyd edib.

### Ekspertlərin düşüncələri

■ **Rusiyalı politoloq Andrey Çurakov «Rosbalt» agentliyinə müsahibəsində vurğulayıb ki, 2021-ci ilin əvvəllərində start götürən rusiyalıların etiraz aksiyaları səngiməyəcək.** Onun sözlərinə görə, keçən il də Rusiyada böyük siyasi fəallıq var idi: «Arxangelsk, Xabarovsk və digər şəhərləri xatırlayın. İnsanlar hiss etdilər ki, hərəkətləri ilə nəticə əldə etmək mümkündür. Razılaşdırılmamış aksiyalar Kreml və region rəhbərləri üçün həyəcanverici siqnaldır». O. 23 yanvar aksiyalarını tək Aleksey Navalnı ilə əlaqələndirməyib. Bu etirazlar həm də prezident Vladimir Putinin siyasi kursunu dəyişməyə yönəlik çağırışlar idi.

■ **Rusiyada nümayişlər Navalnıya görə başlasa da, bu etirazların əsas məqsədi Rusiyada böyük dəyişiklik tələbidir. Bu açıqlama ilə türkiyəli siyasi ekspert Saleh Yılmaz çıxış edib. Ekspert vurğulayıb ki, ölkədə geniş yayılan pandemiya səbəbindən çətinliklər çoxalıb:**



"Ölkədə inflyasiya qısa müddətdə artdı. Ərzaq məhsullarının qiyməti bahalaşdı. Dövlətin bu istiqamətdə təsiri azdır, xalqın buna etirazı var. Rusiya polisi əvvəlki etiraz aksiyalarında belə şiddətə yol vermirdi. Lakin izdiham artdıqca polis daha sərt tədbirlər görməyə başladı. Rusiya dəyişiklik istəyir. Qarşıdakı günlərdə etiraz dalğası artacaq və gərginlik yüksələcək". Görünən odur ki, qarşıdakı günlər Rusiyanın siyasi həyatında qaynarlığı ilə seçiləcək. Bu amilin Kremlin bölgə siyasətinə hansı təsiri göstərəcəyini isə zamanla müşahidə edəcəyik.

✍ *Azad Əliyev*

### Dosye

**Aleksey Anatolyeviç Navalnı Rusiyada fəaliyyət göstərən Korrupsiya ilə Mübarizə Fondunun qurucusu, müxalifət lideridir. 1976-cı il iyunun 4-də Moskva vilayətində doğulub. Rusiya Xalqlar Dostluğu Universitetinin hüquq fakültəsini bitirib, Rusiya Hökuməti yanında Maliyyə Akademiyasında, ABŞ-ın Yel Universitetində də təhsil alıb.**

2000-ci ildən ictimai-siyasi fəaliyyətlə məşğuldur. Gələcək Rusiya Partiyasının lideridir. Dövlət başçısı Vladimir Putinin ən sərt əleyhdarı kimi ad çıxaran Aleksey Navalnı 2013-cü ildə 5 il, 2014-cü ildə 3 il 6 ay müddətinə şərti həbs cəzasına məhkum edilib. Dəfələrlə inzibati həbs cəzası alıb.

**20 avqust 2020-ci il tarixdə Navalnı Rusiyanın Tomsk şəhərindən paytaxt Moskvaya qayıdarkən qəfildən halı pisləşib.**



Təcili Omsk xəstəxanasına yerləşdirilən Navalnı komaya düşüb. Rusiyada Navalnıya maddələr mübadiləsinin pozulması diaqnozu qoyulub. Avqustun 22-də səhər saatlarında onu Almaniyanın "Charite" xəstəxanasına yerləşdiriblər. Orada aparılan klinik araşdırmaların nəticələri Aleksey Navalnının xolinesteraza inhibitorları qrupundan olan bir maddə ilə zəhərləndiyini göstərir.

**Aksiyalardan bir neçə gün əvvəl Almaniyadan Moskvaya təyyarə ilə gələn Navalnı paytaxtın hava limanında saxlanılıb.** Onun 29 dekabr 2020-ci il tarixdən axtarışda olduğu bildirilir. 2 fevralda keçiriləcək məhkəmə Navalnının 2014-cü ildə dələduzluq ittihamı ilə aldığı üç ilyarımlıq şərti cəzanın həbs cəzası ilə əvəz edilməsi məsələsinə baxmalıdır. Bundan üç gün sonra, müxalifətçi İkinci dünya müharibəsi veteranına qarşı böhtan atmaq ittihamı ilə yenidən məhkəmə qarşısına çıxarılacaq. Hazırda saxtakarlıq hökmünün şərtlərini pozduğuna görə o, 15 fevraladək həbsə alınaraq, Moskvadakı Matrosskaya Tishina həbsxanasına yerləşdirilib. Navalnı Rusiya penitensiar xidmətində mütəmadi şəkildə qeydiyyatdan keçməli idi. Lakin o, toksik maddə ilə zəhərlənmədən sonra Almaniyada müalicə olunarkən bunu etməyib.

## XƏBƏR LENTİ

### "BakuBus" Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verildi



**Prezident İlham Əliyev "Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.**

Sərəncamla Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı"na aşağıdakı məzmunda 16-1-ci hissə əlavə edilir:

"16-1. Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti".

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılır.

### Fəaliyyət göstərməyən partiyaların adları açıqlandı



**"Siyasi plüralizm güclü ölkənin və demokratiyanın əsas göstəricisindən biridir. Bu sahədə mühitin formalaşdırılmasında siyasi partiyaların xüsusi rolu var". Bunu Ədliyyə Nazirliyinin 2020-ci il fəaliyyətinə həsr olunan mətbuat konfransında Nazirliyin Qeydiyyat və notariat baş idarəsinin rəisi İlqar Məmmədov bildirib. Onun sözlərinə görə, indiyə qədər Azərbaycanda 62 siyasi partiya dövlət qeydiyyatına alınıb:**

"Son bir il ərzində 7 siyasi partiya dövlət qeydiyyatından keçib. Siyasi partiyaların əksəriyyəti aktiv fəaliyyət göstərir. Partiyalar ölkə başçısının bəyan etdiyi və yürütdüyü siyasətin nəticəsində siyasi dialoqun tərəfdaşına çevrilib. Azərbaycanda çoxpartiyalı parlament formalaşıb və bu da demokratiyanın inkişafında önəmli addımdır. Biz əksər partiyaların Vətən müharibəsi zamanı Ali Baş Komandanın ətrafında birləşdiyinin şahidi olduq.

Siyasi partiyaların birgə bəyanatı da Azərbaycanda yaşanan siyasi birliyin təcəssümüdür. Lakin təəssüflər olsun ki, bəzi siyasi partiyaların fəaliyyəti ümumiyyətlə yoxdur. Bu partiyaların rəhbərləri, habelə üzvlərinin bəziləri vəfat edib və bundan sonra bu partiyalar faktiki mövcud deyil. Onlar siyasi arenada fəaliyyətdən də savayı, qanunvericiliklə üzərinə qoyulmuş tələblərə riayət etmirlər. Yəni ki, qurultaylar keçirmirlər, rəhbər orqanları seçmirlər, illər üzrə maliyyə hesabatlarını təqdim etmirlər. Belə partiyalara misal kimi, Azərbaycan Dirçəliş və Tərəqqi, Müstəqil Azərbaycan, Azərbaycan Milli Dövlətçilik, Azərbaycan Vətənpərvərlər, Azərbaycan Vahid Kommunist partiyalarını qeyd etmək olar. Hazırda Ədliyyə Nazirliyi tərəfindən bu istiqamətdə müvafiq işlər görülür".

✍ *Azad*

### Astara gömrük postunda 21 kq narkotik aşkarlandı



**Gömrükçülər avtomobilin xüsusi üsullarla düzəldilən gizli saxlanc yerlərindən külli miqdarda narkotik vasitə aşkar ediblər.**

Dövlət Gömrük Komitəsindən hafta.az-a verilən xəbərə görə, Cənub Ərazi Baş Gömrük İdarəsinin Astara gömrük postunda "Renault" markalı, yük nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib. Yoxlama zamanı nəqliyyat vasitəsinin dartıcısının arxa hissəsində yerləşən 2 ədəd akkumulyatorun hər birinin içərisinə nisbətən kiçik ölçülü akkumulyator, qalan boşluqlara isə düzbucaqlı formalı, qarارəngli bağlamalarda qablaşdırılan narkotik vasitə tiryək yerləşdirildiyi məlum olub. Ümumilikdə, 10 ədəd bağlamadan qablaşdırmaları ilə birgə 21 kq 280 qram narkotik vasitə - tiryək aşkar edilib.

### "Azərişıq" və "Azəriqaz" əməkdaşlıq edəcəklər

**Yanvarın 25-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti (ASC) ilə "Azəriqaz" İstehsalat Birliyi arasında strateji əməkdaşlıq üzrə memorandum imzalanıb.**

ASC-dən hafta.az-a bildirilib ki, videoformatda keçirilən tədbirdə memorandumu "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov və "Azəriqaz" İB-nin baş direktoru Ruslan Əliyev imzalayıblar. Hər iki qurumun rəhbər şəxsləri imzalanmadan öncə kommunal sektorda əməkdaşlığın zəruriliyinə toxunublar və bu təşəbbüsün də abonent məmnuniyyətinə hesablandığını vurğulayıblar. Bildirilib ki, hər iki qurumun kifayət qədər təcrübəyə sahib mütəxəssisləri var. Onlar kommunal sektorda ortaya çıxa biləcək problemləri əvvəlcədən proqnozlaşdırmaqla, müvafiq tədbirlərin görülməsi istiqamətində birgə səy göstərə bilərlər. Beləliklə, qarşılıqlı fikir və informasiya mübadiləsi gələcək fəaliyyət üçün çox faydalı ola bilər.

Qeyd edək ki, strateji əməkdaşlıq üzrə memorandum gələcəkdə vahid mənbədən idarə edilməklə vahid kommunal idarəetmə funksiyalarının formalaşdırılması, şəbəkəyə qoşulmanın əlçatanlığı və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsini nəzərdə tutur. Bundan başqa Vətən müharibəsinin nəticəsi olaraq işğaldan azad edilmiş ərazilərdə daha operativ yanaşmanın təmin edilməsi istiqamətində də birgə fəaliyyət planının işlənilməsi nəzərdə tutulur.

## Xüsusi müxbir

**44** günlük Vətən Müharibəsi Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılacaq. Bu müharibədə öz mikrofon və kameraları ilə döyüşə atılan jurnalistlərimizin də fədakarlığı danılmazdır. Bu gün "Həftə içi"nin qonağı İTV-nin müharibə bölgəsinə ezam olunan xüsusi müxbiri Arazxandır.

# "Qapanlı bombalanandan sonra müharibənin dəhşətini gördük"



**Araz Xan,**
İTV-nin xüsusi müxbiri

***- Arazxan, Vətən Müharibəsində bir jurnalist olaraq sizin də bu böyük tarixə şahidlik etmək şansınız oldu. Hərbi jurnalist olaraq fəaliyyətə necə və haradan başladınız?***

- Biz Bakıdan çıxanda kimin hara gedəcəyini yolda müəyyənləşdirdik. Mənə əsasən Gəncə, Tərtər və Goranboy istiqamətlərində olmaq tapşırıldı. Füzuli, Cəbrayıl, Ağdam istiqamətlərində də oldum. Birinci Tərtərə və Qapanlı kəndinə getdik. Əvvəl nə olduğunu, təhlükəni tam olaraq anlamırdıq. Qapanlıda olduğumuz ərazi bombalanandan sonra müharibənin dəhşətini bildik. Anladıq ki, bəli, bu başqa bir vəziyyətdir və özümüzü də qorumalıyıq.

Səngərin içərisində top atışlarından sonra o qədər toz, torpaq olurdu ki, əsgərlərin hamısı torpaq rəgninə boyanırdı. Əsgərlərin əzmkarlığını, o ab-havanı görəndə artıq heç kəs, operatorlar, müxbirlər qorxmurduq. Ən qaynar nöqtələrə girirdik. Bir az geridə qalanda, narahat olurduq, ürəyimiz sıxılırdı ki, daha irəliyə getmək lazımdır. Döyüş bölgəsində isə həm əsgərlər, həm döyüş bölgəsinə yaxın ərazidə yaşayan insanların hamısında bir qürur, döyüşkənlik ruhi var idi. Hamının 27-28 il içinə yığılıb-qalan düşmənə nifrət enerjisi partlamışdı. İnsanlarda, jurnalistlərdə, ancaq qələbə düşüncəsi var idi.

Məni ən çox üzən yer Gəncə oldu. Gəncədə döyüş yox idi, sadəcə, mülki əhalinin bombalanması var idi. Orada uşaqların, qadınların ölümü, günahsız, döyüş meydanından çox-çox uzaqda olan insanların raketlərlə vurulması mənə çox pis təsir edirdi.

***- Yadınızdan çıxmayan, unutmayacağınız məqamlar nə oldu?***

- Biz haradasa ilk dəfə idi ki, Tapqaraqoyunludan Ağdərə istiqamətinə azad olunmuş adsız bir əraziyə getdik, əsgərlərimizin yanında olduq. Döyüşdən qayıtmışdılar. Növbəti döyüşlərə hazırlaşan dəstələr - tankçılar, kəşfiyyatçılar orada idilər. Biz onların içərisində olduq və o anı heç vaxt unutmuram. Oradan bir reportaj da hazırlamışdıq. Həm videolardan, həm də əsgərlərimizin dediklərindən belə anlaşılırdı ki, qarşı tərəf çox qorxur. Düşmən silah-sursatla yaxşı təchiz olunmuşdu. Biz silahları pulla almışdıq, amma onlara silahları pulsuz vermişdilər. O silahları istifadə etməyə erməni əsgərlərinin gücü, ruhu yox idi. Reportaj hazırladığımız vaxt, bir zabitimizin dediyi sözlər yadımdadır. Əsgər bizə dedi ki, bu qədər silahları, texnikaları var, hamısını qoyub qaçıblar. Deyirdi ki, istifadə edə bilməyəcəkdinizsə bunlar nəyinizə lazımdır? Döyüşə bilməyəcəkdinizsə, niyə qabağımıza çıxmısınız? Bizim əsgərimizlə, erməni əsgərinin döyüş ruhunda böyük bir fərq var idi. Orada gördüyüm əhval-ruhiyyə tamam başqa idi. İkinci unuda bilmədiyim məqam Gəncənin vurulması anı idi. "Elbrus" raketləri ilə vurulanda gördüyüm dəhşət yadımdan çıxmaz. Orada bir məqam var idi; mən bütün canlı bağlantılarda da deyirdim ki, dünyanın bütün yerlərində raket düşən yerdən hamı qaçır ki, bura yenidən vurula bilər. Gəncəyə axırıncı raket düşəndən sonra əraziyə gedəndə orada 3 min adam var idi. Polis insanları ordan uzaqlaşdıra bilmirdi.

***- Heç jurnalist olduğunuzu unudub, "Mən də bir daşı qaldırmalıyam", - deyə bir hadisə oldumu?***

- Gəncə hadisəsində belə hallar olurdu. Hər 15 dəqiqədən bir çıxıb canlı danışmalı olurdum. O müddətdə hissləri bir kənara qoymuşduq, sadəcə reportyor kimi danışırdıq. Sonra bizim digər qrup - Tərtərdən Heydər Mirzə və Xanlar Mehdiyev gəldilər. Operator və jurnalistləri orada işləyən görəndə "Artıq fasilə edə bilərəm", - deyə sakitləşdim. Ətrafıma baxanda məni qəhər boğurdu. Hadisələrə Gəncədə yaşamış sakin kimi baxırdım. Orada biz də insanlara kömək etməyə çalışdıq. Bilmədim orada necə iştirak etdim, kimə kömək elədim. Kiminsə əlindən tuturdum, kimisə yerdən qaldırırdım... Cəbhəni döyüş vaxtı təmin edən yerlər var idi. Oradan əsgərlərimizə yemək, sular, başqa nələrsə aparılırdı. Jurnalist olmağımıza baxmayaraq, mikrofonu kənara qoyub maşınlara su, yemək, geyimlər yükləməyə köməklik edir, "Bu, bizim işimiz deyil", - demirdik. Eləcə də orada polislər, DTX-nin əməkdaşları da bunu edirdilər. Hər kəs "Mənim də orduya bir köməyim olsun", - deyə nəsə edirdi.

***- Müharibələrdə çəkiliş aparmayan, hərbi təcrübəsi olmayan bir jurnalst olaraq hansı çatışmazlıqları müşahidə etdiniz ki, onun mütləq həll olunmasını düşünürsünüz?***

- Otuz ildir ki, müharibə şəraitində olan bir ölkəyik. Atəşkəs olan dövrdə də şəhidlərimiz olub. Bu müddət ərzində ordumuz ciddi hazırlıq keçmişdi. Jurnalistikada bu sahə üzrə hazırlıq yox idi. Bir jurnalist olaraq döyüş xəttində necə davranmalıyıq, özümüzü necə qorumalıyıq, təhlükəsizliyimizi necə təmin eləməliyik, hansı ərazilərdə çəkiliş aparmaq olar, hansı ərazilərdə olmaz kimi məsələləri bilmirdik. Bəzən lazım olmayan kadrlar efirə gedirdi, hansı ki, getməməliydi. Jurnalistlər üçün belə təlimlər hər il olmalıydı. Müəyyən qrup jurnalistlər seçilməli və bunlara hərbi təlimlər keçilməli idi. Yeri gəlsə, bir hərbçi kimi təlimlər keçilməli idi. Düşdüyümüz vəziyyətə uyğun və bəzən göstərilən iradlardan nəticə çıxararaq hərəkət etdik. Ümid edirəm, üzüqara olmadıq.

Bir məqamı da vurğulayım ki, bəzən bizi qınayırdılar ki, xarici jurnalistlər daha operativdir. Elədir. Baxırdıq ki, bu ərazilərdə canlı bağlantı eləsək, hansı ki, orada bizim texnikalar, mövqelər var, oranı göstərsək, o informasiyanı qazana bilərdik. Ondan sonra hansısa əsgərimiz həyatını itirə bilər, hansısa mövqeyimizi itirə bilərik. Biz bunları düşünəndə, o məlumatı vermək istəmirdik.

***- Media ekspertləri belə bir iradla çıxış elədilər ki, bu gün hər hansı bir sənədli filmin, bədii filmin hazırlanması, tarix üçün döyüş səhnələrini canlı əks etdirən çəkilişləri olmayıb. Bəlkə də belə çəkilişlər olub, amma efirə verilmir. Necə düşünürsünüz?***

- Bəzən döyüş sahəsinə daxil olanda ehtiyatla davranırdıq. Düşünürdük ki, arxivdə saxlamaq üçün çəkdiyimiz döyüş səhnələrini saxlamaq üçün göndərsək, səhvən efirə verə bilərlər. Düzdür, jurnalistin irəli getməsinə icazə verilmirdi, müxtəlif yollar tapıb gedirdik. Döyüşün ən ön xətlərində olurduq. Postları hansısa yollarla keçib, həmin əraziyə girib-çıxırdıq. Dövlət təhlükəsizliyini, orada döyüşən əsgərlərimizin təhlükəsizliyini nəzərə alıb informasiyaları verməmişik. Bəli, bizim bu gün o kadrlarımız var, amma efirə getməyiblər.

***- Nə yaxşı ki, bizim jurnalistlər müharibədən xəsarətsiz, itkisiz qayıtdı...***

- Mən bir dəfə də demişdim ki, bu, Allahın təqdiri idi ki, jurnalsitlərdən ciddi xəsarət alan olmadı, şəhid olmadı. Biz bu döyüşləri jurnalsit olaraq itkisiz başa vurduq. Döyüş qurtardı deyə bir şey yoxdur. Bundan sonra da həmişə hazır olmalıyıq. Necə ki, Azərbaycan Ordusu Türkiyədə təlimləri davam etdirir, biz də jurnalist olaraq özümüzü inkişaf etdirməliyik, bunun üçün də bayaq dediyim kimi, müəyyən kurslar olmalıdır.

***- Arazxan, bildiyim qədər siz işğal olunmuş ərazilərə gedirsiz. Son çəkilişi də Şuşada Polad Bülbüloğlu, Fərhad Bədəlbəylinin o yerləri ziyarəti ilə bağlı aparmısınız. İstərdim, bizə bu təəssüratlarınızdan danışasınız.***

- İşğaldan sonra getdiyim ilk ərazi Cəbrayıl rayonu idi. Biz həmişə "cənnət Qarabağ" demişik. Cəbrayıla gedəndə, ancaq uçulmuş evləri, xarabalıqları gördük. Orada düşmənin nə qədər azğın olduğunu gördük. Bir daha aydın oldu ki, işğal olunan yerlərdə ermənilər yaşamayıb, onlara torpaq lazım deyilmiş. Bir az Şuşada, tək-tük də Kəlbəcərdə yaşayıblar. O evlər xüsusilə Suriyadan, Livandan gətirilən ailələrə aid olub. Füzuliyə, ən azı, 10 dəfə getdim, Kəlbəcərdə oldum. Şuşada birinci dəfə 10 gün, iki dəfə də Ağdamda oldum. Hamısında da tamamilə fərqli hisslər keçirirdim. Öz doğma yurduna gedirsən və düşmənin törətdiyi ağlasığmaz vəhşiliklə qarşılaşırsan.

Şuşaya ilk gedişimiz tamam fərqli idi. O təbiətə gözlərimiz ac idi. Mümkün qədər çox kadr çəkmək istəyirdik. Şuşa düzələcək və o kadrları bir də görməyəcəydik. Bir də 1 aydan sonra Polad Bülbüloğlu və Fərhad Bədəlbyli ilə getdik. Bülbülün evində olduq, onların o evə qayıdışını izlədik, çəkdik. Uşaq kimi sevinirdilər, sanki 50 il bundan əvvəl idi, müharibə-filan da yox idi. Mən buna başqa söz tapmıram. Polad Bülbüloğlu o evə elə gedirdi ki, sankı orada Bülbül onu qarşılayacaqdı. Bax, o cür əhval-ruhiyyə var idi. Polad Bülbüloğlu atasının ilinin dəydiyi ağacı qucaqladı, kövrəldi. O, özü ilə arxitektor aparmışdı. Evin necə bərpa ediləcəyinin layihəsi hazırlanacaq. İndidən o evin təmirinə başlanılıb.

***- Sizin bu müharibədə iştirak etdiyiniz prosesləri ümumiləşdirsək, gələcəyin hansı portretini cızırsınız, hansı xəyallarınız, düşüncələriniz var?***

- Müharibə başladığı andan bilirdim ki, heç nə əvvəlki kimi olmayacaq. Dövlət başçımızın Sumqayıtda zavodların açılışı zamanı belə bir ifadəsi oldu ki, Qarabağda nöqsanlara yol verilməyən bir idarəçilik qurulacaq. Hesab edirəm, bu, gələcək üçün çox yaxşı nümunə olacaq. İşğaldan azad olunan ərazilərimiz sıfırdan, heç bir nöqsana yol verilmədən qurulacaq. Mən proseslərin bu cür inkişaf edəcəyini gözləyirəm. O yerlərdə yaşayış əvvəlkindən də yaxşı olacaq. Sadəcə, o yerlərə şəhidləri, aparılan döyüşlərin məqsədini unutmadan qayıtmalıyıq. Bəzən deyirlər ki, kimlərsə geri qayıtmayacaq. Elə deyil, bəlkə də o ərazilərə qaçqın düşən 1 milyondan da çox insan qayıdacaq. Əhali çoxalıb. Bunun üçün proseslər başlayıb.

Mən özüm də kəlbəcərliyəm, orada evimiz var idi. Qaçqınlıq düşməmişdən əvvəl, son 2-3 il idi ki, Gəncədə ev almışdıq. Kəndimiz Başqaraçanlı 2700 m hündürlükdə yerləşən, yaylaq relyefə malik yer idi. Orada təhsil yaxşı deyildi. Atam yaxşı təhsil alaq deyə Gəncədə ev aldı və biz orada məktəbə getdik. Mütəmadi olaraq Kəlbəcərdəki evimizə gedibgəlirdik. Qaçqınlıq düşəndə evimizi qurulu qoyub çıxdıq.

O vaxt "qaçqınlıq statusu almaq" məsələsinə gələndə atam dedi ki, Gəncədə evim var, o statusu almaq istəmədi. Dövlətin qaçqınlar üçün verdiyi rüsumlardan istifadə elədik. Biz qaçqınlıq statusu almadan da öz evimizə, Arazxan babamın tikdiyi evimizə qayıdacağıq.

Mən Bakıda yaşayırdım, evim də yox idi. Döyüş başlayanda ipoteka ilə ev aldım. O müddətdə dedilər ki, məhkəməyə verib qaçqın statusunu ala bilərsən. Biz onu almadıq. İndən sonra, İnşallah, evimizə gedib, oranı təzədən tikib yaşayacağıq.

✍ *Tahirə Qafarlı*

> *"Bəli, bizim bu gün o kadrlarımız var, amma efirə getməyiblər.*

## Müsahib

**Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının prezidenti, politoloq Sülhəddin Əkbər "Həftə içi"nə müsahibəsində son günlər Rusiyada baş verən kütləvi etiraz aksiyaları, onların mümkün nəticələri, yeni Ağ Ev administrasiyasının proseslərə təsiri, Rusiya hakim elitasında gedən parçalanmalar və s. haqda danışıb.**

# Bayden dövrü Rusiya üçün yeni sınaq zamanıdır

***- Sülhəddin bəy, Rusiyada müxalif lider Navalnının həbs olunmasıyla bağlı son kütləvi etiraz aksiyalarının nəticələrini necə görürsünüz?***

- Etirazların nəticələri gözlənildiyindən də müsbətdir. Rusiyanın öz ekspertləri də bu aksiyalardan öncə rəylərini bildirmiş və çoxları skeptik, bədbin yanaşmışdılar. Yəni belə kütləvilik gözləmirdilər. Bu nəticə diqqətimi 3 baxımdan cəlb etdi. Birincisi, aksiyaların Vladivostokdan Kalininqrada qədər 100-dən çox şəhərdə keçirilməklə bütün Rusiyanı əhatə edəcək bir miqyasda olması. İkincisi, kütləviliyi, yəni etirazlara gözlənildiyindən daha çox adamın qatılması. Üçüncüsü, aksiyaların yüksək energetikası, yəni iştirakçıların dönməz əhval-ruhiyyəsi. Bu 3 parametrdən yanaşdıqda hadisələrin inkişafını müsbət qiymətləndirirəm. Və belə çıxır ki, rus ekspertlər öz rəylərinə yenidən baxmalı olacaqlar...

Bundan sonra isə olayların inkişafını izləmək lazımdır; görək, bu, sadəcə, bir aksiya olacaq, yoxsa getdikcə daha da genişlənən nəhəng bir demokratik prosesə çevriləcək. Bu isə çoxsaylı faktorlardan asılıdır. Zənnimcə, xarici və daxili amilləri nəzərə alsaq, proses getdikcə genişlənəcək və dərinləşəcək...

***- Sizcə, getdikcə genişlənən bu cür etirazlar qarşısında Putin hakimiyyətinin çıxış yolu nədədir?***

- Hesab edirəm ki, hakimiyyətin çıxış yolu üçün iki əsas seçimi var. Putin ya rejimi daha da sərtləşdirməli, repressiyaları daha da artırmalıdır. Ya da yeni bir demokratik açılım edərək islahatlara getməlidir. Fikrimcə, Kreml birinci variantı seçəcək. Ən azı, ilk dövrdə...

***- Belə çıxır ki, bəzi fikirlərin əksinə olaraq Putinin tezliklə devriləcəyi gözlənilmir?***

- Yox, mən bu prosesin tezliklə Putinin gedişi ilə nəticələnəcəyini düşünmürəm. Düzdür, onun səhhəti ilə bağlı hakimiyyəti təhvil verməyə hazırlaşması haqda söhbətlər gedir. Amma bu hətta həqiqət olsa da belə, hələ bir müddət keçəcəyini düşünürəm. O başqa məsələdir ki, həm daxili səbəblər, həm də xarici konyuktura getdikcə Putinin vəziyyətini ağırlaşdırır. Yəni ölkə mətbuatında da dəfələrlə bildirmişəm ki, Amerikada Cozef Bayden dövrü - 2021-2024-cü illər Rusiya rejimi üçün yeni bir sınaq zamanı olacaq. Və böyük ehtimalla Rusiya məsələsi beynəlxalq gündəlikdə olacaq. İndi bunun nəticələri necə alınacaq; Putin dəyişəcəkmi, rejim dəyişəcəkmi, Rusiyanın dövlət olaraq taleyi necə olacaq? Bütün bunlar çoxsaylı faktorlardan, hadisələrin hansı yöndə inkişafından asılıdır. Ona görə də indidən konkret bir fikir söyləmək bir qədər qeyri-ciddi olardı.

Odur ki, hadisələri diqqətlə izləməliyik. Çünki Rusiyada gedən proseslər ilk növbədə bütün postsovet məkanına, o cümlədən Azərbaycana təsirsiz ötüşmür. Və nəzərə alsaq ki, hazırda Rusiya artıq hərbi mənada da legitim şəkildə Azərbaycandadır - şimal qonşumuzun daxilində baş verənlər bizi yaxından ilgiləndirməlidir. Bu səbəblərdən Rusiyadakı proseslərin nəticələrindən asılı olaraq öz hazırlığımızı görməliyik...

***- Tutaq ki, bir az bəsit səslənsə də, bəzilərinin düşündüyü kimi, az sonra Navalnı hakimiyyətə gəldi. Bu halda artıq demokratik(!) Rusiya hakimiyyətinin Azərbaycana, konkret olaraq Qarabağ məsələsi ilə bağlı münasibəti Ermənistanın ziyanına tamamilə dəyişər, sizcə?***

- Elə fikirləşənlər yumşaq desək, çox tələsirlər. Nəzərə almaq lazımdır ki, Rusiya tipli rejimlərdə hakimiyyət uğrunda əsas mübarizə hakim elita daxilində gedir. Və hazırda hakimiyyət dəyişikliyinə hazırlaşan tərəflər var. Odur ki, şimal qonşumuzda bir neçə ciddi qüvvənin varlığını nəzərə almalıyıq. Birinci Putin və onun inandığı, etibar etdiyi sədaqətli dairələr var. Ikincisi, Putindən sonra hakimiyyətə hazırlaşanlar var.

Məsələn, Nikolay Patruşev başda olmaqla şərti desək, "FSB" komandası... Üçüncü isə iqtidarla iç-içə olan xüsusən də Putinin ətrafında olan oliqarxlar dairəsi... Onlardan hansısa gələcəkdə Rusiya müxalifəti ilə, konkret olaraq Navalnı ilə əməkdaşlıq edə bilər. Amma ən azı ilkin dövrdə onlar hakimiyyəti təbii ki, asanlıqla əldən verməyəcəklər. Bu baxımdan Rusiyada hakimiyyətin elitadaxili ötürülməsi mümkündür, nəinki demokratik dəyişikliklər yoluyla... Bu gün də çoxları sanki yenidəndurma dövründə olduğu kimi, Qorbaçovun, ardınca da Yeltsinin hakimiyyətə gəlməsi kimi bir demokratik açılım gözləyir. Amma indi Moskvada hakimiyyətdə mərkəzi komitənin 1-ci katibi, islahatçı Qorbaçov deyil, keçmiş "KQB" zabiti Putindir. Və ölkədə də ikinci bir Yeltsin hələki yoxdur...

***- Rusiya daxilində belə versiyalar səsləndirənlər var ki, guya Navalnı Rusiyanın gerçəkdən demokratikləşməsini səmimi olaraq düşünən bir şəxsiyyət yox, sadəcə, Qərb xüsusi xidmət orqanlarının agentidir. Və onun apardığı mübarizə Rusiyanı demokratiyaya doğru yox, xaosa, parçalanmaya sürükləyəcək...***

- Belə fikirlər çox ola bilər. Ümumiyyətlə, hər hansı bir adamı əsas, ən azı gerçəyə bənzər bir şübhəli fakt olmadan xüsusi xidmət orqanlarıyla əməkdaşlıqda ittiham etmək qeyri-ciddidir. Söhbət ondadır ki, bu ittihamı kim irəli sürür və hansı əsasla irəli sürür? Təbii ki, Navalnı ciddi fiqurdur.

Hələ Moskva mer seçkilərində hökumətin özünün etiraf etdiyi rəsmi rəqəmlərə görə, ikinci yer tutmuşdu. O, bu gün də Rusiya daxilində kifayət qədər populyardır. Və yəqin ki, bu baxımdan müxalif liderlər arasında 1-ci yerdədir. Çox güman ki, Rusiyanın yetkin nəsli arasında Navalnını tanımayan yoxdur. Təbii ki, populyarlıq hələ ciddi faktor deyil. Hələ bunun siyasi kapital olub-olmaması gələcəyin məsələsidir. Hələlik Navalnının heç bir siyasi təşkilatı və siyasi proqramı yoxdur... Odur ki, indidən çırmanmağa ehtiyac yoxdur...

***- Sosial şəbəkələrdə Navalnının müsəlmanlara, türklərə nifrət bəsləyən irqçi, faşist ideologiyalı bir şəxs olması haqda da təbliğat başlayıb. Bu yaxınlarda bir müsəlman tatar blogerin onun barəsində yazdığı bu cür şərhlərə məşhur dağıstanlı idmançı Həbib Nurməhəmmədov da böyük dəstək verdi...***

- Hesab edirəm ki, sosial şəbəkələrdə deyilənlərə yox, ilk növbədə Rusiyadakı rejimə diqqət etmək gərəkdir. Rusiya xalqı kimi və necə seçməsini özü müəyyən edəcək. Əsas odur ki, bu ölkədə avtoritarizmdən demokratiyaya keçid olsun, demokratik hakimiyyət qurulsun. Və təbii ki, Rusiya demokratik hakimiyyətinin postsovet məkanına münasibəti dəyişəcəkdir.

Çünki dünya ilə inteqrasiya məsələləri, Avropa, Avroatlantik, Amerika institutlarıyla və yaxın xaric deyilən ölkələrə münasibət məsələləri gündəmə gələcək və həmin münasibətlər dəyişəcəkdir... Çox güman ki, Navalnı haqqında belə fikirlər gündəliyi dəyişmək, tərəfləri qıcıqlandırmaq üçün məhz Putin rejimi tərəfindən ortalığa atılır. İndidən qorxuya düşüblər ki, bütün müsəlmanlar da Navalnının ətrafında birləşə bilər...

✍ *Sultan Laçın*



**Sülhəddin Əkbər,**
Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının prezidenti, politoloq

> *"Rusiyada gedən proseslər ilk növbədə bütün postsovet məkanına, o cümlədən Azərbaycana təsirsiz ötüşmür.*

> *"İndi Moskvada hakimiyyətdə mərkəzi komitənin 1-ci katibi, islahatçı Qorbaçov deyil, keçmiş "KQB" zabiti Putindir.*

## Araşdırma

***Q**vineya körfəzində Liberiya bayrağı altında üzən, Türkiyəyə məxsus “Mosart” adlı konteyner gəmisinə yanvarın 23-də hücum edən dəniz quldurlarının 19 heyət üzvündən birini öldürüb, 15-ni isə qaçırması hazırda dünya mediasının müzakirəsindən düşmür. Özü də hadisə o qədər gözdənuzaq yerdə baş verməyib, Nigeriya sahillərindən 180 mil aralıda olub. Amma təəssüf ki, körfəzin sahilə bu qədər yaxın sularında quldurluq hallarının qarşısını alacaq hər hansı təhlükəsizlik sistemi mövcud deyil. Hə bu arada, Qvineya körfəzində sonuncu dəfə ötən ilin avqust ayında “Paksoy-1” adlı yük gəmisi hücuma uğramışdı. İndiki “Mosart” gəmisi isə Qvineya körfəzində indiyədək dəniz quldurlarının hücumuna məruz qalan sayca 9-cu türk gəmisidir. Bu səbəbdən də bəzi media quruluşları məsələyə siyasi don geydirməyə çalışırlar. Dəniz quldurluğunun bizə bəlli olan 3 min illik tarixi var. Bu gün də dənizçilik tarixində ən məşhur 10 quldurun (piratın) adı tez-tez çəkilir. Hansı ki, onlar bu günki qaradərili - afrikalı quldurlardan fərqli olaraq, dövrünün ən savadlı və mədəni cəmiyyətlərinin təmsilçiləri - ingilis, holland, fransız, ispan idilər.*



# Dəniz quldurları

## Gəmilər üçün ən təhlükəli bölgələr





Hətta tarixdə ən məşhur dəniz qulduru adını alan çinli qadın, özü də meyxanalarda əxlaqsızlıqla məşğul olan qadın Çing Şihin dəstəsində 1500 gəmi və 85 minlik quldur ordusu varmış. Yəni bu misalı çəkməklə demək istəyirəm ki, dəniz quldurlarını hansısa siyasi mərkəz dəstəkləyə bilər, amma onlar əsasən daha çoz və asan yola qazanmaq istəyənlər olurlar. Sonra da, dəniz quldurları yalnız Qvineya körfəzində basqın etmirlər gəmilərə, onlara nəzarət zəif olan bütün bölgələrdə rast gəlmək mümkündür. Məsələn, beynəlxalq dəniz təşkilatlarından biri - İMB hələ 15 il əvvəl həyacan təbili çalırdı ki, şirkətlər hökumətlərlə danışıqlar aparıb dünya okeanında üzən yük gəmilərində, nəhəng neft tankerlərində silahlı mühafizə təyin etməlidirlər. Ən azından ekipaj üzvlərini qanun daxilində silahlandırmaq lazımdır ki, hücuma məruz qaldıqda özlərini qoruya bilsinlər. Amma bu çağırış eşidilmədi. Sadəcə Niderland hökuməti müsbət reaksiya verdi, vəssalam.

■ **Beynəlxalq hesabatlara əsasən, dünyada gəmilər üçün bir sıra təhlükəli bölgələr olsa da, aralarında ən qorxulusu Cənub-Şərqi Asiyadakı boğazlar və xırda adalarla dolu olan ətraf sulardır.** İndoneziya və Malayziya sularını əhatə edən bu bölgədə tarix boyunca gəmilərə ən çox basqın edilib. İş o yerə çatıb ki, bu regionda dəniz quldurları hətta limanda lövhər salmış gəmiləri belə soymağa cəhd göstərirlər. Bu xüsusda bəzi rəsmi məlumatlara istinad edək: Banqladeşin ən iri dəniz limanı olan Çittaqonda lövhər salmış gəmilərə saysız-hesabsız hücum faktı qeydə alınıb. Eyni hallara Hindistanın Çennay və Kandla limanlarında da rast gəlinib.

Bölgədə bu müstəvidə ən pis vəziyyət İndoneziyadadır. Bu ölkənin ərazisi olan Adang körfəzi, Anambas suları və xüsusilə oradakı Natuna adası, Balıkpapan, Belevan, Bontang və sair dəniz quldurlarının məskənləridir.

Yeri gəlmişkən, beynəlxalq dəniz təşkilatları bütün gəmilərə xəbərdarlıq edib ki, məhz burada - Malakka boğazının İndoneziya sahillərində məcbur qalmadıqda, limanlarda lövhər salmaqdan çəkinsinlər. Şimali Sumatra ərazisi, Aceh sahilləri, Belavan suları çox riskli bölgələrdir. İndoneziya ilə yanaşı, bəzən Malayziya sahillərində də gəmilərə quldur basqınları edilir.

Bundan başqa, Cənubi Çin dənizində üzən gəmilər də mütəmadi şəkildə quldur hücumlarına məruz qalırlar. Eləcə də, Sinqapur limanları, Vyetnamın güneyi - Xo Şi Min suları quldurların məskənidir.

Məlumatlara əsasən, hətta Sinqapur sularında bir yük gəmisinə eyni anda çox sayda katerlə hücum etmək quldurlar üçün adətdir.

Başqa bir təhlükəli bölgə Qırmızı dəniz, ona qonşu olan Ədən körfəzi sularıdır. Bu ərazidə nəinki gəmilərin heyətləri pul tələb etmək üçün girov götürülür, hətta gəmilərə od vurub yandırırlar da.

■ **Somali suları da dəniz quldurlarının məskəninə çevrilib. Burada bir il ərzində ən çox hücum faktı 2005-ci ildə qeydə alınıb.** Həmin il 35 gəmiyə basqın edilib. Özü də onlar hücum zamanı ağır silahlardan belə istifadə etməyi unutmayıblar. Bu cür iriçaplı hücum faktlarının sahildən cəmi 400 mil aralıda baş verməsi isə vəziyyəti bir az da ağırlaşdırır.

Çünki Somalidə uzun zamandır Əş-Şahab terror təşkilatının fəaliyyətdə olması, bəzi ərəb ölkələrinin də dəstəyi ilə ölkənin şimal yarısında qondarma rejimin yaradılması və onun Maqadişo hökumətinə tabe olmaması, nəzarətsiz qalan quldur dəstələrini daha da azğınlaşdırır. İş o həddə çatıb ki, gəmilərə, zəruri ehtiyac yaranmadığı təqdirdə Somali sahillərindən 200 mil aralıdan üzüb keçmək tövsiyyə edilib.

■ **Şərqi Afrikada yerləşən Tanzaniyaya məxsus Dar əs Salam limanında və yaxın sularda da gəmilər üçün böyük risq mövcuddur. Dəniz quldurluğu ancaq Asiya və Afrika sahilləri ilə yekunlaşırmı, əlbəttə ki, xeyir. Latın Amerikası sahilləri də təhlükəlidir.**

Lap “Karib dənizinin quldurları” filmində olduğu kimi, bu regionda da həm açıq dənizlər, həm də sahillərin müasir limanları yük gəmiləri üçün narahatlıq yaradır. Xüsusilə də, Haitinin Port o Prens limanı və yaxın çevrəsinin suları dəniz quldurlarının məskənidir. Bundan başqa, Yamaykanın Kingston, Perunun Kallao limanı da müasir dövrümüzün gəmilər üçün təhlükəli əraziləridir. İraqın Bəsrə, Umm Qəsr limanları da gəmilərə hər an basqın edilə biləcək yerlərdir.

■ **Hə, bu arada, yazının ilk başında qeyd etdiyimiz kimi, türk gəmilərinə hücum edilən Qvineya körfəzi suları da beynəlxalq ekspertlər tərəfindən ən təhlükəli bölgə adlandırılır.** Bura üçün də, bütün gəmilərə tövsiyyə olunur ki, Kot Divuarın Abican, Nigeriyanın Bonni River, Laqos (sonuncu türk gəmisi bu limanın yaxınlığında hücuma məruz qalıb), Onne, Varri, Kamerunun Douala və Qananın Tema limanlarına yanaşarkən bütün ehtiyyat tədbirləri alsınlar.

Beynəlxalq dəniz yük daşımaları təşkilatının məlumatına görə, Qvineya körfəzində nəzarətsizlik səbəbindən hücumların sayı hər il artmaqda və ən təhlükəli bölgə ünvanını almaqdadır. Yalnız 2019-cu ilin altı ayı ərzində, bütün dünya dənizlərində baş vermiş gəmi qaçırma olaylarının 73 faizi, heyət üzvlərinin girov götürülməsi faktlarının isə 92 faizi məhz Qvineya körfəzinin payına düşür.

■ **Beynəlxalq Dənizçilik Təşkilatının hesabatında göstərilir ki, qlobal miqyasda dəniz quldurluğuna qarşı təsirli tədbir görülmədiyi üçün, hücum faktları ildən-ilə artır.** Məsələn, 1999-cu illə müqayisədə, cəmi bir il sonra - 2000-ci ildə gəmilərə hücum halları 57 faiz artıb və o il ümumilikdə 469 gəmiyə basqın edilib. Onun da böyük hissəsi Cənub-Şərqi Asiyanın - Malakka boğazının və Sinqapurun payına düşür.

■ **2019-cu ildə Qvineya körfəzində ümumilikdə 156 gəmiyə hücum faktı qeydə alınıb. Onun da dörddə üçü Nigeriyanın əsas neft yataqları yerləşən delta hissəsində baş verib.** Bundan əlavə, 2019-cu ilin altı ayının məlumatına əsasən, dünyada quldur hücumları nəticəsində 75 dənizçi girov götürülüb ki, onun da 62 nəfəri məhz Qvineya körfəzi sahillərində - Nigeriya, Kamerun, Benin, Qvineya və Toqo sularında qeyd alınıb. 2020-ci ildə isə, dünyada toplam 135 gəmi heyət üzvü girov götürülüb ki, onun da 95 nəfəri məhz Qvineya körfəzində olub. Bu bir ildə baş verən gəmilərə hücum faktları dünya gəmiçilik sənayesinə 818 milyon dollar ziyan vurub.

■ **Bu arada, Böyük Britaniyanın təhlükəsizlik şirkəti olan “EOS Risk Group”un məlumatına əsasən, hazırda Nigeriya qlobal dəniz quldurluğunun mərkəzi rolunu oynamaqdadır.**

Dünya Bankının hüsabatına əsasən, gəmilərə qarşı quldurluq halları müasir tarixdə ən çox 2010-cu ildə yaşanıb, 2019-cu ildə isə ən az belə fakt baş verib. Amma təəssüf ki, 2020-ci ilin pandemiya şəraitində gəmilərə qarşı quldurluq halları yenidən 24 faiz artıb.

Ötən il gəmilərinə ən çox hücum edilən ölkələrin siyahısı aşağıdakı kimidir: 1. Yunanıstan - 45 gəmi, Sinqapur - 30 gəmi, Almaniya - 18 gəmi, Hong Kong - 13 gəmi, Danimarka və Birləşmiş Ərəb Əmirlikləri - hərəsi 9 gəmi və Türkiyə - 5 gəmi.

Eləcə də, ötən il gəmilərə qarşı quldurluq faktlarının 35-i Nigeriya, 26-sı İndoneziya, 23-ü Sinqapur və 11-i Benində baş verib. Göründüyü kimi, 95 hadisədən 46-sı Qvineya körfəzinin, qalan 49-u isə Cənub Şərqi Asiyanın payına düşür.

Bu arada qeyd edək ki. tarixdə varlanmaq ümidi ilə qaçırılan gəmilərin yükü adətən minerallar, sənaye məhsulları və sair olub. Amma Somali sahillərində dəniz quldurlarının Ukraynadan Keniyaya gedən, göyərtəsində 33 ədəd T-72 tipli tank və çox sayda ağır silah olan gəmini ələ keçirməsi artıq möcüzə idi. Vəziyyət çox ağırlaşmışdı və çoxmillətli əməliyyat başladı, Rusiya, ABŞ və Avropa İttifaqının döyüş kreyserləri Ukrayna gəmisini azad etmək üçün hərəkətə keçiblər...

Quldurluq hallarının qarşısını almaq üçün, ABŞ və digər Qərbi Avropa ölkələri istər Qvineya körfəzi olsun, istər Şərqi afrika sahilləri, istərsə də Cənub-Şərqi asiya regionu, hərbi təlimlər keçirlər, gəmi heyətlərini baş verəcək mümkün hücumlara qarşı hazırlayırlar və xüsusilə də, adıçəkilən bölgələrdə ticarət donanmalarını qorumaq məqsədilə sahilyanı ölkələrin dəniz patrul qüvvələrinə hazırlıq kursu keçirlər.

Eyni addımı Çin dövləti də atır, Çin Hərbi Dəniz Qüvvələrini Nigeriya və kamerun kimi ölkələrin sahil-mühafizə qüvvələrinə təlimlər keçiblər. Çin, həmin ölkələrə bu sahədə daha güclü olmaq üçün hərbi təchizat da göndərməkdədir.

Avropa İttifaqı isə 2013-cü ildən başlayaraq Qvineya körfəzi sahili ölkələrinə və digər təhlükəli dənizlərin sahilində yerləşən ölkələrə hər cür hərbi-texniki yardım göstərməkdədir.

Qardaş Türkiyə dövləti də bu sahədə töhfələrini verməkdədir. Məsələn, Türkiyə 2017-ci ildə ABŞ-ın Afrika Komandanlığının planlaşdırdığı və Qərbi Afrika ölkələrinin də qatıldığı “Saharan Express” təlimində iştirak edib. əslində, Türkiyə hələ 2014-cü ildə Barbaros Dəniz Mühafizə Qrupunu Qərbi Afrika ölkələri olan Seneqal, Qambiya, Nigeriya, Toqo, Kamerun və Qabona göndərib, Qambiya və Nigeriyaya təhlükəsizlik sahəsində yatrdım verib və sair.

*✍ Vüsal Tağıbəyli*

### Statistika

**2020-ci ilin yanvar-noyabr aylarında Azərbaycanda 61 147 ölüm halı qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,7 təşkil edib.**

Ötən ilin eyni dövrü ilə müqayisədə ölüm halları artıb. Belə ki, 2019-cu ilin yanvar-noyabr aylarında ölkədə ölüm sayı 50796 olub. Əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,6 təşkil edib.

QƏHRƏMAN DÖYÜŞÇÜLƏRİMİZİ TANIYAQ

# Vətən Müharibəsindən beş medalla qayıdan Əsgər

**Yastığımız Vətən daşı,**
**Yorğanımız qar olsun.**
**Biz bu yoldan dönər olsaq,**
**Namus bizə ar olsun!...**



**27 sentyabr 2020-ci il... Torpaqlarımızın azadlığı uğrunda Vətən Müharibəsi başlayanda düşmənlə mübarizəyə qoşulan qəhrəman oğullarımız məhz bu amalla tarixi yola çıxdılar. Yastığı Vətən daşı, yorğanı qardan olan, düşmənin heç bir həmləsindən çəkinməyən igidlərin sayəsində azadlığına qovuşdu Vətən torpağı.**

Onlar Vətən savaşını haqq savaşı bilərək mərdliklə, şücayətlə döyüşdülər və 44 gün ərzində əsrlərlə bərabər bir tarix yazdılar. Azərbaycanın Zəfər qələbəsində payı olan, Qarabağ uğrunda gedən döyüşlərdə xüsusi mərdlik göstərən əsgərlərdən biri də Emil Sakitoğludur. Ordu sıralarından yenicə tərxis olunan Emil döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanmasındakı xidmətlərinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə dövlət başçısı tərəfindən ”Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Zəngilanın azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” və “Ağdamın azad olunmasına görə” medallarına layiq görülüb.

Qeyd edək ki, Emil Sakitoğlu 2000-ci ildə Zərdab rayonunun Şıxbağı kəndində zəhmətkeş ailədə anadan olub. Ailənin ortancıl övladı olan Emil 2017-ci ildə Şıxbağı kənd tam orta məktəbini bitirərək hərbi xidmətə yollanıb. Naxçıvanda “N” saylı hərbi hissədə hərbi xidmət keçib. Məktəbdə oxuduğu illərdə alpaqut döyüş sənəti ilə məşğul olub və bu idman növünün 65 kq çəki dərəcəsi üzrə Dünya çempionatında bürünc, Azərbaycan çempionatında 1 qızıl, 1 gümüş, 1 bürünc, Bakı çempionatında 2 qızıl, 1 gümüş, 1 bürünc medal qazanıb.

**Emil Vətən müharibəsinin könüllü iştirakçılarındandır. O, ötən ilin iyulunda ermənilərin Tovuz istiqamətində törətdiyi təxribat zamanı könüllü olaraq ordu sıralarına yazılır.**

Döyüşlərin başlamasından, təxminən, 6 gün əvvəl, sentyabrın 21-də onu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Zərdab rayon bölməsinə çağırırlar. Onun sözlərinə görə, elə həmin gün də Səfərbərlik Xidməti tərəfindən digər könüllülərlə bərabər təlim düşərgəsinə yola salınırlar. İkigünlük təlimdən sonra Ağcabədidəki “N” saylı hərbi hissəyə yerləşdirilirlər. Senytabrın 25-də isə Ağdama aparılır və beləcə, Emilin Ağdamdan Şuşaya qədər uzanan döyüş yolu başlayır: “Orduya könüllü yazılmışdım. Xidmətə gedəndə nə medal, nə pul, heç nə fikirləşmirdim. Dövlətdən heç bir umacağım yox idi. Ötən ilin İyul hadisələrində gənclərin çoxu kimi mən də Səfərbərlik Xidmətinə gedib könüllü olaraq orduya yazıldım. Evdə də bu barədə heç kimə bildirmədim. Səfərbərlik Xidmətində də öz nömrəmi qoymuşdum. Fikrim müharibə baş verərsə müharibədə iştirak etmək idi. Əsas məqsədim də o idi ki, torpaqlarımızın azad olumasında, şəhidlərimizin qanının yerdə qalmamasında mənim də payım olsun.

Goranda təlim keçdikdən sonra bizi Ağcabədiyə aparmışdılar. Həmin vaxt cəbhədə sakitçilik idi. Oradan da sentyabrın 25-də Ağdama apardılar və müdafiə xəttində dayandıq. 27-si isə səhər saatlarında bizə əks hücum əmri verildi. Cəbhənin bütün istiqamətlərində erməni təxribatlarıına qarşı əks hücüm əməliyyatı başlamışdı. Düzdür, ilk günlərdən top, mərmi səsi, yaralı əsgərləri görmək hər kəsə qəribə gəlirdi, ancaq qısa vaxtdan sonra bunlar adiləşdi. Hər kəs torpağı üçün canından keçməyə hazır idi. İnsan az da olsa həyəcan hissi yaşayır, amma buna baxmayaraq qürur hissi keçirirsən. İllərdir arzusunda olduğumuz torpaqlara qovuşmaq artıq xəyal deyildi. Tam səmimi deyirəm, bizə “atəş” əmri veriləndə sevincimizin həddi-hüdudu yox idi, döyüşlərə çox böyük ruh yüksəkliyi ilə gülə-gülə atılırdıq. Fəxr edir, qürur hissi keçirirəm ki, düşmənə qarşı savaşanlar arasında mən də var idim”.

Onun sözlərinə görə, müharibə zamanı heç kəs öz canını, geriyə dönməyi düşünmür, yalnız bir amal üçün vuruşur o da Vətəndir: “Biz gerini fikirləşmirdik, hədəfimiz ancaq irəli getmək idi. Məqsədimiz işğal altındakı torpaqlamızın hər qarışını geri qaytarmaq idi, bir dəfə də olsun Ordumuz azad etdiyi hansısa mövqedən geri çəkilmədi. Biz müharibə müddətində düşmənə öz gücümüzü göstərdik, əsgər yoldaşlarımızın, şəhidlərimizin, qazilərimizin canı və qanı bahasına, şücaəti, qəhrəmanlığı hesabına son ana qədər vuruşduq, torpaqlarımızın azad edilməsinə nail olduq”.

**Emil deyir ki, döyüşlər zamanı yeganə çətinlik, bütün əlverişli mövqelərin düşməndə olması idi: “Əks-hücum əməliyyatları zamanı Azərbaycan hərbçiləri böyük qəhrəmanlıq, şücaət göstərərək o yüksəkliklərdə mövqe tutan düşməni geriyə çəkilməyə məcbur etdi.** Bütün çətinliklərə sinə gərərək düşmənin müdafiə xəttini yarıb sürətlə irəliləyirdik. Ardıcıllıqla işğaldan azad etdiyimiz ərazilərdə postlar qurur, onun mühafizəsini təşkil edir, əlavə şəxsi heyət cəlb edildikdən sonra yenə də irəliyə gedirdik. Hərbçi yoldaşlarımın yalnız bir amalı var idi, torpaqlarımızın hamısını ermənilərdən təmizləmək. Hər kəs yalnız bunu düşünürdü. Yanımızda hərbçi yoldaşlarımızın şəhid olması, yaralanması nə qədər ağır olsa da, bizim gözümüzü qorxutmur, əksinə, düşmənə olan qəzəbimizi daha da artırırdı. Şəhidlərimizin, yaralılarımızın qanını beşqat alırdıq. Cəbrayılda, Xocavənddə, Zəngilanda, Şuşada əla döyüşlərimiz oldu. Mən “həmlə” qrupunda idim, əsas vəzifəm baş kəşfiyyatçı idi.

## “Hədəfimiz ancaq irəli getmək idi”



Bununla yanaşı, top heyətinə də kömək edirdim, topa mərmilərin vaxtında çatdılmasını təmin edirdim. Ən çətin döyüşümüz Şuşa istiqamətində idi ki, çox şəhidlərimiz orada oldu. Biz Şuşaya ermənilərin gözləmədiyi istiqamətdən hücuma keçmişdik. Şuşa elə bir yerdə yerləşir ki, oranı itkisiz almaq qeyri-mümkün idi. Şuşaya hücum zamanı ermənilər Azərbaycan Ordusunun gücünü, cəsarətini bir daha gördülər. Biz Şuşa istiqamətində kiçik qruplar şəklində hərəkət edirdik ki, düşmən şübhələnməsin. Ən xırda səhv nəzərdə tutulan Şuşa əməliyyatını poza bilərdi. Ona görə də əməliyyata cəlb olunan hər bir hərbiçi işinin məsuliyyətini dərk edirdi. Komandanlıqdan verilən tapşırıqları dəqiqliklə yerinə yetirməyə çalışırdıq ki, əməliyyat pozulmasın. Ermənilərin nəzarətində olan Şuşa yoluna toplarımızı elə yerləşdirmişdik ki, ermənilər bundan xəbər tuta bilməmişdilər. Bizim qrupun vəzifəsi də Şuşa yaxınlığına yerləşdirdiyimiz topları və digər silah-sursatı qorumaq idi. Ermənilərin şübhələnməməsi üçün ərazidə kiçik qruplar şəklində keşik çəkirdik.Yalnız Şuşa istiqamətində döyüşlər şiddətlənəndən sonra ermənilər bizim topların bir addımlıqlarında olduğunu başa düşdülər. O zaman isə artıq gec idi. Döyüş üstünlüyü bizdə idi”. İşğal olunmuş ərazilərdə doğulmayan, oraları ömründə bir dəfə də olsa görməyən E.Sakitoğlu azad olunan ərazilərdə keçirdiyi hislərdən də söhbət açıb: ”Düzü, o torpaqları heç vaxt görməmişdim. Bu münaqişənin yaşı mənim yaşımdan 10 yaş böyük idi. Bunun heç bir fərqi yox idi. Azərbaycanlı idim və Vətənimin ərazi bütövlüyünün pozulması bir gənc kimi məni də narahat edirdi. Məhz bu amal idi bizi döyüşlərə cəlb edən, ölümü heçə sayan. Özümüzə sığışdıra bilməzdik ki, arxa cəbhədə qalaq, döyüşlərdə iştirak etməyək. Bu, bir tarix idi. Biz bu tarixin iştirakçısı olduq. Sevinirəm ki, Zəfər tariximizin yazılmasında zərrə qədər də olsa mənim də payım var. Bu, mənim üçün böyük fəxrdir. Azad etdiyimiz torpaqlarda olarkən keçirdiyimiz fərəh hissini isə sözlə ifadə etmək olduqca çətindir. Onu ancaq yaşamaq gərəkdir”.

***Haşiyə***

*Emilin dayısı Elçin Hacıyev, yaxın qohumu Vidadi Əhmədov Birinci Qarabağ müharibəsində iştirak edərək qəhrəmancasına şəhid olublar. Yolunda can verdikləri Vətən torpağını azadlığına qovuşduran igid oğulların sayəsində indi onların da ruhu şaddır!*

*✍ Sevinc*

# COVID-19 dərmanları ilə bağlı qıtlıq yoxdur

**Reportaj**




**Pandemiya şəraitində keçən bir ili geridə qoyduq. Bu müddət ərzində dünyaya yad olan bir sıra xoşagəlməz təcrübələr yaşandı. Hal-hazırda virus əleyhinə vaksinlər hazılanıb istifadə edilsə də, təəssüflər olsun ki, yoluxma halları var və davam etməkdədir. Məlumdur ki, Covid-19-a yoluxma zamanı bir sıra dərman preparatları qəbul edilir.**

Misal olaraq, ”Arbidol”, ”Azitromitsin”, ”Herqoferon”, ”Favipiravir”, ”Theraflu”, vitamin ”D” və ”C” komplekslərini göstərmək olar. Virusa yoluxma pik həddə çatdığı aylarda, hətta apteklərdə belə dərman qıtlığı yaranmışdı. Bəs görəsən, ötən aylarda və hazırda bu dərman vasitələrinin satışı, qiymətləri arasında nə kimi fərqlər yarandı? Apteklərin dərman çatışmazlığına cavabı nədir? İndi də bu müalicə vasitələrinə olan tələbat əvvəlki qədərdir? Hafta.az əməkdaşı yaranmış suallarla bağlı paytaxtın müxtəlif ərazilərində yerləşən apteklərə baş çəkdi, həmin sorğunun nəticəsini sizə təqdim edirik.



Əvvəlcə onu deyək ki, suallar eyni olsa da, cavablar fərqlidir. Kimisi ümumiyyətlə dərman qıtlığının yaşanmadığını söyləsə də, bəziləri bir müddət öncə, depolarda belə Covid-19 müalicəsində istifadə olunan preparatların bitdiyini dilə gətirdi.

■ **İlk olaraq yaxınlaşdığımız aptekin əməkdaşı Emil bəy indi satışlatın əvvəlki kimi olmadığını bildirdi:**

”Şükürlər olsun ki, indi həm xəstəliyə yoluxma, həm də dərmanlara olan tələbat azalıb. Elə buna görə də virusun müalicəsində istifadə olunan dərmanların satışları xeyli aşağıdır. Deyim ki, ”Arbidol”, ”Herqoferon” kimi preparatlardan başqa, vitamin komplekslərinə də tələbat çox idi. İndi əvvəlki qədər çox olmasa da, vitaminlər yenə də alınır”.

■ **Başqa bir aptekdən isə deyildi ki, ən çox alınan dərman “Azitromitsin”, “Arbidol”, “Kleksan”dır:** ”Qiymətlər isə uşaq və böyüklər üçün doza fərqlərinə görə müxtəlifdir. Böyüklər üçün istifadə olunan ”Arbidol” 7.40 manatdan başlayır. Bundan başqa, ”Theraflu” 0.80 qəpik, vitamin ”C” 15, ”D” isə 10 manatdır. Hazırda bu dərman vasitələrinin satışı xeyli dərəcədə azalıb. Daha əvvəl isə gəldiyi ilə bitməyi bir olurdu. Bu müddətdə qiymət artımı olmasa da, qıtlıq yaranmışdı. Dərmanlar depodan gəlmirdi. Nə ”Arbidol”, nə də ”Kleksan” tapılırdı. ”Valeryan” belə gəlmirdi, 15 ədəd göndərilirdi ki, o da tez satılıb qurtarırdı. Hə, bir də ki, spirt çox satılırdı. Elə indi də dərmanlara baxmış satışı xeyli yüksəkdir. Spirtdə də qiymət artımı olmadı - 0.70 qəpikdir”.

Qeyd edək ki, yaxınlaşdığımız bir neçə aptekdən mövzu ilə bağlı danışmağa icazə verilmədiyi söylənildi. Biz də yolumuzu şəhərin mərkəzində deyil, bir qədər ətraf ərazilərdə yerləşən apteklərdən də saldıq. Məhəllələrdə yerləşən apteklərdən bir neçəsindən bildirildi ki, yoluxma sayı çox olduğu vaxtlarda belə, daha çox vitamin kompleksləri alınırdı. Yəni virusa yoluxan insanlar deyil, özünü qoruyanlar üstünlük təşkil edib.

■ **Əczaçı Aygül xanım söylədi ki, hələ virus yayılmağa yenicə başladığı vaxtlarda insanlar daha çox vitaminlərin alışını həyata keçirirdi:** ”Normal olaraq hamı vəsvəsədə idi. Elə indi də spirt və digər antiseptik maddələr, vitaminlər çox satılır. Vitaminlər 6.16 və 10.36 manat arası dəyişir. Fərqləri isə tabletlərin sayındadır. ”Arbidol”un qiyməti də 14 manat 78 qəpik olaraq qaldı. Şükürlər olsun, dərman qıtlığı yaranmadı. Adıçəkilən dərmanların qiymətləri dövlət tərəfindən təyin edilib. Ona görə də bizim ixtiyarımız yoxdur, onları təyin olunandan ucuz və ya baha satmağa”.

Əczaçı spirtə olan tələbatın pik həddinin ötən ilin aprel və may aylarında olduğunu da bildirdi: ”3-4 ay əvvəl də bir qədər çox alınırdı. İndi isə bu məhsulun satışı xeyli aşağıdır”.

Daha sonra şəhər sakinləri ilə kiçik bir sorğu apardıq. Müsahiblərimizin yüksək əksəriyyəti tibbi vasitələrdən daha çox, qrip və qızdırma əleyhinə dərmanlardan, maska və spirtdən istifadə etdiklərini söylədi.

■ **Paytaxt sakini Nazilə xanım isə sentyabr ayında oğlunun virusa yoluxduğunu, lakin xəstəliyi ağır keçirdiyindən müalicəsini xəstəxanada davam etdirdiyini dedi:** ”Virus oğlumun ciyərlərinə keçdiyi üçün xəstəxanaya aparıldı. İlk vaxtlar müalicə məqsədilə ”paraşok” dərmanlardan istifadə etsə də faydası olmadı. Güclü oynaq və başağrıları olduğuna görə narahat olub test etdirdi.

Nəticə də bildiyiniz kimi... Evdə hamıda bir qorxu var idi, bizim testlərimiz neqativ çıxsa da, ehtiyatlı davrandıq. Ailə həkimimiz evdəkilərə bir neçə vitamin kompleksindən istifadə etməyi məsləhət gördü. Şükürlər olsun, indi hamımız yaxşıyıq, İnşallah, bu virus tez müddətdə məhv olar”. Apardığımız sorğulardan belə nəticəyə gəldik ki, bəzi əczaçıların bir qismi qəbul etməsə belə, dərmanlarda qıtlıq yaşanıb. Hal-hazırda yoluxma sayının azalması isə satışlara da öz ”mənfi” təsirini göstərir.

✍ *Banu*

**Anım**

# Şəfiqə Axundovanın anadan olmasından 97 il ötdü



***Hərənin öz qisməti, taleyi olan bu həyatda onun öhdəsinə bəstəkarlıq missiyası düşmüşdü. Yaşadığı acılı-şirinli günlərinə, keşməkeşli ömür yoluna baxmayaraq, o, heç vaxt sənətindən küsməmiş, yazdığı mahnılarla həm özünün, həm də başqalarının qəlbini ovundurmuş, milyonların sevimlisinə çevrilərək yaradıcılıq zirvələrini fəth etmişdi.***

Bu günlərdə görkəmli bəstəkar, Xalq artisti, “Şöhrət” ordenli Şəfiqə Axundovanın anadan olmasından 97 il ötür.

O, 1924-cü ildə Şəki şəhərində dünyaya göz açıb. A.Zeynallı adına Bakı Musiqi Məktəbində oxuyarkən bəstəkar Üzeyir Hacıbəylidən dərs alıb, müəlliminin tövsiyəsi ilə təhsilini Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) davam etdirib və bəstəkarlıq ixtisası üzrə Boris Zeydmanın sinfini bitirib. İlk bəstəsi olan “Bala” mahnısını müəllimi Üzeyir Hacıbəyliyə göstərərək, onun xeyir-duasını almış Şəfiqə Axundova ustadından əxz etdiyi yaradıcılıq ənənələrinə və yüksək insani keyfiyyətlərə ömrünün sonunadək sadiq qalıb. Təsadüfi deyil ki, Şəfiqə Axundovanın əsərləri milli musiqi və professional bəstəkarlıq ənənələrini özündə birləşdirir. O, 1972-ci ildə yazdığı “Gəlin qayası” operası ilə Şərqdə ilk opera yazan qadın bəstəkar kimi tarixə düşüb. “Gəlin qayası” operasında klassik musiqi ilə muğamın qovuşması Üzeyir Hacıbəyli üslubunun saxlanmasını bir daha təsdiq edir. Operada ariyalarla yanaşı, muğam parçalarının da səslənməsi bəstəkarın xalq musiqisini mükəmməl bilməsindən irəli gəlir və əsərə uğur qazandırır.

Şəfiqə Axundovanın zəngin yaradıcılığına “Ev bizim, sirr bizim” operettası, böyük simfonik orkestr üçün süitaları, xor üçün silsilə əsərləri, “Aydın”, “Əlvida Hindistan!”, “Nə üçün yaşayırsan?” səhnə əsərlərinə, “Təlxəyin nağılı”, “Dovşanın ad günü” və digər uşaq tamaşalarına yazdığı musiqilər, yüzlərlə mahnı və romans daxildir. Onun “Sənin nəğmən”, “Çinar və mən”, “Həyat, sən nə şirinsən?!”, “Sular qızı”, “Ötür illər”, “Nədən oldu”, “Bu torpağa borcluyam”, “İlhamını alar aşiq”, “Doğma diyarım”, “Şəki”, “Gözlərimin işığı sənsən”, “Gəl, ey səhər”, “Mehriban olaq”, “Yaşatdın elləri”, “Sevgi ölmür” və digər lirik mahnıları xalq arasında çox məşhurdur. Bu əsərlər ən kədərli vaxtlarımızda dərdimizə su səpir, bizə xoş ovqat bəxş edir. Bəstəkarın musiqi yazdığı şeirlər Azərbaycan poeziyasının ən gözəl nümunələridir. O, Süleyman Rüstəm, Xanımana Əlibəyli, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Zivər Ağayeva, Nəriman Həsənzadə, Mustafa İsgəndərzadə, Rüxsarə İbadova, Məsum Əliyev, Paşa Qəlbinur və başqalarının əsərlərinə mahnılar yazıb. Şəfiqə Axundovanın əsərlərini Şövkət Ələkbərova, Gülağa Məmmədov, Fatma Mehrəliyeva, Anatollu Qəniyev, Rübabə Muradova, Zeynəb Xanlarova, Elmira Rəhimova, Zaur Rzayev, Səkinə İsmayılova, Gülyaz və Gülyanaq Məmmədova bacıları, Eldar Ələkbərov, Türkiyədə İbrahim Tatlısəs, Əhməd Şəfəq, istedadlı gənc ifaçı Berna Karagözoğlu və başqaları tərəfindən sevilə-sevilə oxunub və bu gün də ifa edilir. Görkəmli musiqiçinin sənəti yeni nəslin təlim-tərbiyəsində də mühüm rol oynayıb. O, bir pedaqoq kimi ömrünün böyük hissəsini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirib, gənc nəslin təhsilinə töhfələr verib. Bəstəkarın sənət naminə çəkdiyi zəhmət Azərbaycan xalqı və hökuməti tərəfindən ən yüksək fəxri adlara layiq görülüb.

Şəfiqə Axundova 2013-cü il iyulun 26-da Bakıda vəfat edib, II Fəxri xiyabanda dəfn olunub.

Bəstəkarın insan duyğularına toxunan mahnıları dinləyicilərin qəlbində ona əbədilik qazandırıb. Şərəfli ömür yaşamış Şəfiqə Axundovanın qoyub getdiyi zəngin irsdən hələ neçə-neçə bəstəkarlar və ifaçılar nəsli bəhrələnəcək, milyonlarla dinləyicilər zövq alacaqlar.



# Ötən il Azercell-in LTE şəbəkəsinin ölkə üzrə genişlənməsi 85%-dən artıq olub

R

Azercell

**“Azercell Telekom” 2020-ci il ərzində LTE şəbəkəsinin təkmilləşdirilməsi layihəsini uğurla həyata keçirib. Qeyd olunan dövrdə Azercell-in LTE şəbəkəsinin əhatə dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsi ölkənin hər yerində abunəçilərin daha keyfiyyətli xidmətlə təmin olunmasına şərait yaradıb.**

Görülən işlər nəticəsində ötən il ərzində Azercell-in LTE şəbəkəsinin əhatə dairəsi 74,2%-dən 85,1%-ə yüksəlib, şəbəkənin ərazi baxımdan coğrafi əhatəsi isə 61,4%-dən 72,4 %-ə qədər genişləndirilib. LTE şəbəkəsinin təkmilləşdirilməsi layihəsinin başlandığı 2 il ərzində isə (01.01.2019-cu il tarixindən 2020-ci ilin sonunadək) Azercell-in LTE şəbəkəsinin əhali əhatə dairəsi 35.9%-dən 85.1%-ə, coğrafi dairəsi 22,5%-dən 72,4%-dək artıb. LTE şəbəkəsinin genişləndirilməsi layihəsi çərçivəsində 2020-ci ildə bu texnologiya üzərindən çalışan 784 yeni radio baza stansiyası quraşdırılıb. Bu stansiyaların müəyyən hissəsi 44 günlük Vətən Müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərdə işə salınıb. Ümumilikdə LTE şəbəkəsinə aid radio baza stansiyalarının sayı 2679-a çatdırılıb. Xüsusilə regionlarda görülən işlər sayəsində ölkə üzrə LTE şəbəkəsi daha da genişləndirilib. Qeyd etmək kifayətdir ki, keçən ilin təkcə sentyabr-dekabr ayları ərzində 118 yeni LTE stansiya istifadəyə verilib. Şəbəkənin təkmilləşdirilməsi sahəsində aktiv fəaliyyətinin nəticəsi olaraq ölkə ərazisində Azercell-in təqdim etdiyi xidmətlərdə əhəmiyyətli irəliləyişlər olub. Görülən işlər Azercell şəbəkəsi üzrə LTE texnologiyası ilə ötürülən data trafikin həcminə də təsir edib. Son bir il ərzində bu göstərici 2.25 dəfə artıb. Hazırda şəbəkədə daşınan ümumi trafikin təxminən 69%-i bu texnologiya üzərindən daşınmaqdadır. Ümumilikdə 2020-ci il ərzində LTE şəbəkəsi üzrə səs trafikində 14%, internet trafikində isə 60% artım əldə olunub.

Bakı və Abşeronda LTE şəbəkəsinin keyfiyyətinin yaxşılaşdırılması tədbirləri Bakı metropoliteninde də aparılır. Layihə çərçivəsində artıq 13 metro stansiyasında və tunellərdə işlər yekunlaşıb. Metro stansiyalarda aktivləşdirilən LTE-Daşıyıcı Birləşdirmə sistemi bu şəbəkədən istifadə edən abunəçilərin daha yüksək sürətli mobil internet əldə etməsinə imkan verir.

Qeyd edək ki, bölgələrdə LTE texnologiyası üzrə datanın ötürülmə sürəti, informasiyanı yükləmə müddəti və video materialların daha yüksək keyfiyyətlə ötürülməsi parametrlərinə görə Azercell ölkənin digər mobil operatorlarından öndədir. Bunu Avropanın “Systemics” şirkətinin ötən il Azərbaycanda keçirdiyi müstəqil bençmarkinq testinin nəticələri də təsdiqləyib. Dünya miqyaslı telekommunikasiya şirkəti olan Ericsson-un apardığı bençmarkinq araşdırmaları isə LTE şəbəkəsinin sürətinə görə Azercell-in “Öz sinfində” (“Best in class”) ən yaxşı operatorlardan biri olduğunu göstərib. Şəbəkənin real zaman rejimində monitorinqinə imkan verən Argela sisteminin tətbiqi də Azercell-in LTE şəbəkəsinin keyfiyyətinin yüksək səviyyədə olmasına imkan yaradır. Hazırda Azercell şirkəti LTE şəbəkəsinin paytaxt və regionlar boyu daha da keyfiyyətli olması, internet trafikin yüksək keyfiyyətinin təmin edilməsi və artırılması istiqamətində texniki tədbirləri davam etdirir. Lider mobil operator LTE üzərində çalışan baza stansiyalarının sayını da sürətlə artırır.


**STATİSTİKA**

**2020-ci ildə Bakı şəhəri üzrə 460 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə 169 nəfər ölüb, 387 nəfər isə xəsarət alıb.**

2019-cu illə müqayisədə hadisələrin sayı 109 fakt və ya 19,2 faiz azalıb: “Eyni zamanda yol qəzaları zamanı qeydə alınan ölümlərin sayı 17 nəfər (9,1 %), xəsarət alanların sayı isə 131 nəfər (25,3 %) azalıb. Qəzaların 167-sini (36,3 %) manevr qaydalarının pozulması, 125-ni (27,2%) sürət həddinin aşılması,56-nı ( 12,2 %) ara məsafəsinin pozulması, 34-nü (7,4 %) yol ayrıcını keçmə qaydalarının pozulması, 16-nı (3,5 %) piyada keçidində keçmə qaydalarının pozulması faktları təşkil edib.

# 87 il sonra yenidən Ayasofiyada nümayiş olunacaqlar



**Əvvəllər Ayasofiyada nümayiş etdirilən tarixi əsərlər 87 il sonra yenidən bu tarixi məkandakı yerini tutacaq. Adıgedən əsərlər 1935-ci ildə Ayasofiyanın muzey kimi fəaliyyətə başlamasının ardından anbarlarda mühafizə altına alınıb. Hazırda bu tarixi əsərlərin bərpa işlərinə başlanılıb.**

Bu məqsədlə tarixi abidənin muzey olaraq fəaliyyəti dövründə satış ofisi olaraq fəaliyyət göstərən bölməsi restovrasiya mərkəzinə çevrilib. Onlarla əsərin yenidənqurma işlərinin yeddi aya tamamlanması planlaşdırılır. Türkiyənin Prezident Aparatının nəzarəti altında həyata keçirilən yenidənqurma işləri İstanbulun Restovrasiya və Qoruma Mərkəzinin regional laboratoriyasının mütəxəssisləri tərəfindən aparılır. Mütəxəssis heyətinin rəhbəri, Türkiyənin Prezident Aparatının Mədəniyyət və İncəsənət Siyasətləri bölməsinin üzvü xəttat Mehmet Özçay vaxtilə Ayasofiyada olan əsərlərin bir hissəsinin Sultanahmet məscidi, Türk İslam Əsərləri Muzeyi kimi fərqli yerlərə köçürüldüyünü və mümkün olduğu qədərinin yenidən Ayasofiyaya qaytarılacağını bildirib. Qeyd edək ki, mühafizə altına alınan əsərlərin böyük əksəriyyəti Bizans və Osmanlı dövrünə aiddir.

**GÜNÜN FOTOSU**



Avropada polis mitinqləri dağıtmağa gedir...

“

# Ali təhsil sistemində yeni standartlar

**Şahlar Əsgərov,**
Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri

“Dünyada təqribən 20 000 universitet var ki, onlardan 2000-ni qabaqcıl universitetlərdir. Deməк olar ki, bütün universitetlərlə bağlı qanunlar eynidir.

⏩ Səh. 4

**STATİSTİKA**



■ İnsanlar orta statistik hesablamalara əsasən 60 illik ömürlərinin 20 ilini yataraq keçirir.

■ Hər bir insan orta hesabla il ərzində 1140 telefon zəngi edir.

■ Avropada əhali sayına görə ən çox telefon istifadə edilən ölkə Lüksuğburqdur. Burada hər 100 insana 157 telefon düşür.



⏩ Səh. 7

# Dəniz quldurları: gəmilər üçün ən təhlükəli bölgələr